www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 avqust 2015-ci il Bazar ertəsi № 179 (6207) Qiyməti 40 qəpik

**Xəbər**

## 1 həftə əvvəl itkin düşən 4 balıqçı İranda tapıldı

yazısı səh.14-də

**Gündəm**

### AXCP sədrinin əmisi oğlundan İŞİD-ə dəstək: "Azərbaycana xoş gəlirsən"


İnqilab Kərimov

Fransada yaşayan AXCP funksioneri terrorçu şəbəkənin hərəkətlərinə haqq qazandıran bəyanat verdi və qaniçən qruplaşmanı ölkəmizə dəvət etdi

yazısı səh.3-də

### Ermənistan iqtisadiyyatı "kliniki ölüm" ayağında

Vəziyyətdən isə bir çıxış yolu var - işğala son!..

yazısı səh.11-də

### Əməkdaşımız savaşan Ukraynanın dinc şəhəri Lvovdan yazır

yazısı səh.10-da

### Partiyalar "toqquşan dairələr"də güzəştə gedəcəkmi...

yazısı səh.4-də

### Azərbaycana "Avrasiya Hərəkatı" təhlükəsi sovuşmayıb

yazısı səh.9-da

### Ermənistana qaçan türk prokurorlar tapıldı

yazısı səh.3-də

*Ekspert:*

### "Yunuslara çıxarılan hökm Qərblə münasibətlərə təsir etməyəcək"

yazısı səh.4-də

### Obamanı prezident edən şəxs öldü

yazısı səh.9-da

### Tətil sonrası sindromdan qurtulmağın 10 qızıl qaydası...

yazısı səh.13-də

### Kinoteatrlara maraq niyə azalıb? - araşdırma

yazısı səh.12-də

## Mənimsənilən milyonlara görə hesab zamanı gəldi

# ZİYA MƏMMƏDOVUN OĞLUNA AĞIR ZƏRBƏ: AMERİKA YOLU BAĞLANIR...

İqtidar Anar Məmmədovun rəhbərlik etdiyi Azərbaycan-Amerika Alyansının fəaliyyətinə son verir; SOCAR ABŞ-da lobbi təşkilatları ilə müqavilə bağladı; hakimiyyət lobbi adına xərclənən pulların hesabını sormağa başladı...




yazısı səh.5-də

# Kremlin 3 paytaxtın arasını vurmaq planı - Bakı da hədəfdə...

Türkiyə səfərini təxirə salan İran XİN başçısı Cavad Zərifin Moskvaya "zərif gedişi"nin pərdəarxası; bölgədə dost-müttəfiqlərin təzədən qruplaşması prosesi başlayıb; Rusiya oyunları öz saatı ilə idarə eləməyə çalışır...

yazısı səh.8-də


Rasim Əliyev

### Öldürülən jurnalistin 7 mərasimi ad gününə düşdü

yazısı səh.6-da



*Qubad İbadoğlu:*

### "Azərbaycanda dövlətin və əhalinin kasıblaşma dövrü başlayıb"

yazısı səh.7-də



### İlqar Məmmədov əfv ərizəsi yazıbmı?

yazısı səh.3-də

# İŞİD liderinin 26 yaşlı amerikalı kənizi

**İŞİD lideri Əbubəkr əl-Bağdadinin amerikalı bir girov qadınla münasibətləri ortaya çıxıb. APA TV-nin "Reuters"ə istinadən verdiyi xəbərə görə, terrorçuların rəhbəri girov götürülən və humanitar missiya nümayəndəsi olan qadını dəfələrlə zorlayıb. Bağdadi Kayla Cin Müller adlı girovla şəxsi kənizi kimi davranıb.**



26 yaşlı qızın əl-Bağdadi onu kənizi elan etdikdən əvvəl işgəncələrə də məruz qaldığı bildirilir.

Əbubəkr əl-Bağdadinin onu Suriya ərazisində İŞİD-in Tunis qanadının liderlərindən birinin evində saxladığı qeyd olunur. Əbu-Səyyaf adlı həmin ev sahibinin bu ilin mayında ABŞ-ın aviazərbələri nəticəsində öldürüldüyü deyilir.

Kayla Cin Müllerin başına gələnləri məhz Əbu-Səyyafın seksual qul kimi saxladığı və sonradan qaçmağı bacaran iki yeniyetmə qız danışıb.

Xatırladaq ki, Kayla Cin Müller 2013-cü ildə Suriyanın Hələb şəhərində terrorçular tərəfindən ələ keçirilib. Həmin vaxt İŞİD onun qaytarılması üçün 5 milyon avro tələb edirdi. 2015-ci ildə isə Ağ Ev rəsmiləri qadının öldüyü barədə məlumat yayıb. Vaşinqton onun İordaniya Hərbi Hava Qüvvələrinin İŞİD-ə hücumu zamanı Rəqqa şəhəri yaxınlığında həlak olduğunu açıqlayıb.



## Partiyalar seçkilərdə maliyyə problemini həll edə biləcəkmi...

### Müxalif düşərgə pul problemini həll etməyib; xərcləri namizədlər özləri qarşılamalı olacaq

**Bir neçə boykot mövqeli təşkilatdan başqa, əksər partiyalar parlament seçkilərinə hazırlaşır. Partiyaların seçkilərdə iştirak üçün maliyyə məsələsini həll etmələri də ciddi amildir. Çünki ən azı təbliğat-təşviqat kampaniyası aparılarkən namizədlərə maliyyə vəsaiti lazım olacaq.**

Parlament seçkilərində iştirak edəcəyini açıqlayan müxalifət partiyalarından biri də Müsavat Partiyasıdır. Partiya seçkilərdə iştirak edəcək namizədlərinin siyahısını avqustun sonlarında açıqlayacaq. "Müsavat Partiyasının namizədləri öz maliyyə xərclərini özləri qarşılayacaq". Bunu musavat.com-a açıqlamasında Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı dedi. Partiyanın heç bir yerdən maliyyələşmədiyini deyən G.Aslanlı bildirdi ki, həmişə olduğu kimi, Müsavat Partiyası yenə də könüllülərin xidmətindən istifadə etmək fikrindədir: "İlkin mərhələdə, namizədlər qeydə alınana qədər böyük xərclər tələb olunmur. Bu xərcləri hər namizəd öz hesabına həll edəcək. Bu namizədin öz işidir ki, o vəsaiti haradan tapacaq. Növbəti mərhələdə - namizədlik qeydiyyata alındıqdan sonra təbliğat-təşviqat kampaniyası aparılanda da lazım olacaq məbləğ namizədin özünün və komandasının hesabına toplanacaq. Yəni bu mərhələdə də maliyyə məsələsini namizəd özü həll edəcək".

"Azadlıq 2015" seçki blokunun namizədləri də öz maliyyə xərclərini özləri qarşılayacaq.

Seçki blokunda təmsil olunan 8 partiyadan biri olan Azadlıq Partiyasının sədri Əhməd Oruc musavat.com-a açıqlamasında bildirdi ki, seçki blokunda təmsil olunan partiyaların hər birinin namizədi öz xərcini özü qarşılayacaq: "İlkin mərhələdə sənədlərin hazırlanması üçün partiyalar öz maliyyə imkanlarından istifadə edəcək. Namizədlər qeydə alındıqdan sonra təbliğat dövründə hər namizəd öz zəruri xərclərini qarşılayacaq".

Ə.Oruc seçki blokunun fəaliyyəti üçün lazım olan xərclərin isə 8 partiya tərəfindən qarşılanacağını dedi: "Seçki blokunun qərargahının, lazımi sənədlərin hazırlanması üçün gərəkli olan xərclər isə "Azadlıq 2015"də təmsil olunan partiyalar arasında bölüşdürüləcək".

ADP sədri Sərdar Cəlaloğlu isə maliyyə məsələsinin həmişə olduğu kimi yenə də çox ciddi bir problem olduğunu bildirdi.

Partiyasının dövlətdən maliyyələşmədiyini deyən S.Cəlaloğlu cəmiyyətdən də dəstək ala bilmədiklərini deyir: "Qeyri-bərabər seçki prosesi keçirilir. Siyasi partiyalara dövlət büdcəsindən maliyyə vəsaiti ayrılmır. Cəmiyyətdən də dəstək verənlər olanda onları repressiyalara məruz qoyurlar. Ona görə də biz məcbur qalıb namizədlərə öz kampaniyalarını aparmalarını məsləhət görürük. Hər bir namizəd öz maliyyə xərclərini özü qarşılayacaq".

❑ **İlkin MURADOV**


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05




## Türkiyədə fövqəladə vəziyyət

**Türkiyənin Muş vilayətinin Varto qəsəbəsində təhlükəsizlik məqsədilə fövqəladə vəziyyət elan edilib. Publika.az xəbər verir ki, Muş valisi Vedat Büyükersoy insanların təhlükəsizliyini təmin etmək üçün bu gün səhər saat 8:30-dan etibarən insanlara küçəyə çıxmağın qadağan edildiyini bildirib. Buna səbəb Muşun təhlükəsizlik qüvvələri ilə PKK terrorçuları arasında silahlı qarşıdurmaların baş verməsidir.**

Türkiyə mətbuatının məlumatına görə, dünən PKK terrorçuları Muş vilayətinin idarəçiliyinə məxsus olan bir ekskavatoru ələ keçirərək Varto qəsəbəsinin girişindəki körpünü dağıdıblar.

Muş valisi Vedat Büyükersoyun sözlərinə görə, PKK terrorçuları hələ də Vartodadır və onlara qarşı hərbi əməliyyatlar davam etdirilir, bəzən terrorçularla təhlükəsizlik qüvvələri arasında silahlı toqquşmalar olur.


Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

Telefon: (012) 434 93 01, 434 01 33




## Prezident olmaq üçün 1 milyard dollar xərcləyəcək

**Qalmaqallı milyarder namizəd prezident olarsa, miqrantları ölkədən çıxaracağını deyib. ABŞ-da Respublikaçılar Partiyasından prezidentliyə namizəd milyarder Donald Tramp seçki kampaniyasına 1 milyard dollar xərcləməyə hazırdır. ANS PRESS-in məlumatına görə, jurnalistlərdən biri ona seçkiqabağı kampaniyaya bu qədər pul xərcləyə bilcəyini soruşanda Tramp müsbət cavab verib.**

"Bəli, əgər lazım olarsa, mən o pulu xərcləməyə hazıram. Mən ildə 400 milyon dollar qazanıram, nə fərqi var ki? Mən tək bir şey istəyirəm - öz ölkəmi daha əzəmətli edəm", - deyən respublikaçı namizəd əlavə edib ki, onun digər namizədlərdən üstünlüyü öz kampaniyasını özünün maliyyələşdirməsidir.

Bundan başqa Tramp dövlət başçısı seçilərsə, ABŞ-da qeyri-qanuni yaşayan bütün miqrantları ölkədən çıxaracağını deyib. "Biz çalışacağıq ki, ailələr bir yerdə olsun. Amma onlar ölkəni tərk etməlidirlər", - deyən milyarder namizəd ABŞ prezidenti Barak Obamanın miqrantlar haqqında qərarını da ləğv etmək niyyətindədir. Həmin qərara əsasən, ABŞ-a gələn miqrantların sənədləri olmasa belə, onların uşaqlarının ölkədən çıxarılması qadağandır.

Keçirilən sorğuya əsasən, Donald Tramp respublikaçı namizədlər arasında liderdir. İndiyədək seçki kampaniyalarında səbəbkar olduğu qalmaqalları onun reytinqinə müsbət, yoxsa mənfi təsir etdiyi isə hələ də bilinmir. Belə ki, Donlad Tramp kampaniyalar zamanı cəmiyyət içində rəqiblərindən birini təhqir edib, teledebat işçiləri ilə mübahisə edib və Respublikaçılar Partiyasının bir neçə üzvü ilə dalaşıb.

## Toya gedən gənci maşın vurdu

**Bərdədə piyadanın vurulması ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Report xəbər verir ki, hadisə şəhərin Heydər Əliyev prospektində "Günəş" şadlıq sarayının qarşısında qeydə alınıb. Rayonun Güloğlular kənd sakini 1998-ci il təvəllüdlü Şirinov Ramin Rüfət oğlu yolu keçmək istəyərkən "VAZ 2107" markalı avtomobil tərəfindən vurulub. Hadisə şahidlərinin sözlərinə görə, 17 yaşlı gənc toya gedirmiş.**

Ağır bədən xəsarəti alan gənc qəzadan sonra ətrafda olan insanların köməkliyi ilə Bərdə Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb. Həkimlərin verdiyi məlumata görə, Reanimasiya şöbəsində olan yaralının vəziyyəti orta ağırdır.



## Əsəd bazarı vakuum bombası ilə vurdu: 58 ölü

Suriyanın paytaxtı Dəməşqdə müxaliflərin nəzarətində olan ərazidə yerləşən bazarda dəhşətli partlayış baş verib. Axar.az xəbər verir ki, bu barədə "Associated Press" agentliyi məlumat yayıb. Məlumata görə, partlayış nəticəsində ən azı 50 nəfər həlak olub.

Suriya İnsan Haqları Təşkilatı isə Şərqi Quta bölgəsində yerləşən bazarda baş verən partlayışda 58 nəfərin öldüyünü, 200 nəfərin yaralandığını bildirib.

Anadolu Agentliyi isə bazarı Suriya ordusuna aid təyyarələrin vakuum bombası ilə vurduğunu yazıb.



## Yaponlar niyə sağlam və uzunömürlüdürlər?

Yaponiyada orta ömür həddi 84,5 ildir. Yaponlarda köklük problemi yoxdur, yaşından asılı olmayaraq hamı arıq və sağlamdır. Bəs, görəsən, buna necə nail olurlar?

Publika.az yaponların sağlamlıq sirlərini araşdırıb:

Etiraf etməliyik ki, yaponlar sağlam olmaq üçün böyük fədakarlıq göstərmirlər. Onlar sadəcə, həyat tərzlərinə uyğun yaşayırlar. Yaponiyanın mətbəxi bu ölkənin insanlarının ən böyük şansıdır. Çünki onların mətbəxi sağlam qidalarla zəngindir. Bizim sadəcə, pəhriz zamanı yediyimiz qidalar onların gündəlik qida menyusuna daxil olur. Balıq, soya, düyü, meyvələr, dəniz yosunları, tərəvəzlər və yaşıl çay bu ölkənin mətbəxində çox önəmli yer tutur. Onlar unlu qidalardan, yağ, qırmızı ət və şirniyyatdan demək olar ki, istifadə etmirlər. Dünyada ən çox balıq yeyən xalq yaponlardır.

Onlar öyünlərdə yeməkləri kiçik porsiyalar şəklində yeyirlər. Yeməyi çox çeynəyir və yavaş-yavaş yeyirlər. Yeməklərinin çoxu buxarda bişirilir. Bir neçə yeməklərində qızartma olsa da, heç bir şey 5 dəqiqədən artıq qızardılmır. Demək olar ki, şirniyyat yemirlər. Mətbəxlərində bir neçə şirniyyat növü var. Bunları da kiçik porsiyalarla təqdim edirlər.

İdman yaponiyalı insanlar üçün böyük əhəmiyyət kəsb edir. Ölkədəki hər kəs idmanla məşğul olur. Kimi yeriyir, kimi qaçır, kimi də velosiped sürür. Bütün məktəblərində idman zalları var. İdman dərslərinə girmək və aktiv olmaq zəruridir.

# Əli Kərimlinin əmisi oğlundan İŞİD-ə dəstək: "Azərbaycana xoş gəlirsən"

## Fransada yaşayan AXCP funksioneri terrorçu şəbəkənin hərəkətlərinə haqq qazandıran bəyanat verdi və qaniçən qruplaşmanı Azərbaycana dəvət etdi; İnqilab Kərimovun kriminal mahiyyətli fotosu da üzə çıxdı



**AXCP sədri Əli Kərimlinin əmisi oğlu İnqilab Kərimov facebook statusunda İŞİD-ə açıq-aşkar dəstək verən və bu qaniçən terrorçu qruplaşmanı Azərbaycana gəlməyə (!) səsləyən status yazıb.**

Sitat: "İŞİD heç də hər adamın başını kəsmir...İŞİD 5 manata sifarişlə məhkəmə zalını dolduranların başını kəsir...İŞİD adını dindar qoyub, cindarlıqla məşğul olanların başını kəsir.... İŞİD adını müxalifət qoyub, nazirliklərə dal qapıdan girib-çıxanların başını kəsir...Və düşünürəm ki, düz də edir...Azərbaycana XOŞ gəlirsən, İŞİD..." Göründüyü kimi, dünyanı qorxuda saxlayan bu terror təşkilatının əməllərinə haqq qazandıran, təqdir edən İnqilab Kərimov İŞİD-i Azərbaycana, Əli Kərimlini və İnqilab Kərimovu təqdir etməyənlərin başlarını kəsməyə dəvət edir.

Əli Kərimlinin zaman-zaman sağ əli olan, hazırda Fransada yaşayan İ.Kərimovun bu statusu sosial şəbəkədə ciddi etirazla qarşılanıb və Azərbaycan dövlətinə qarşı təxribat, cinayətkar şəbəkəyə dəstək kimi qiymətləndirilir və lənətlənir. Fransadan siyasi sığınacaq alsa da, İnqilab Kərimov hazırda da AXCP-nin rəhbər strukturlarında təmsil olunur. İşin maraqlı tərəfi də budur ki, facebookda bir sıra AXCP üzvləri də bu statusu "LİKE" ediblər, bəziləri isə dəstək də yazıblar. Bu situasiya isə AXCP rəhbərliyinin gerçək mahiyyətini ortaya qoyur; bu adamlar öz ambisiya və maraqları naminə ən ağlasığmaz addımlar atmağa, İŞİD-lə belə müttəfiq olmağa hazırdırlar. Hansı ki, sözügedən partiya hakimiyyətə iddialıdır, demokratiyadan dəm vururlar və Azərbaycanda sivil hakimiyyət quracaqlarını iddia edirlər.

Əgər bir partiyanın təmsilçisi, daha dəqiq desək, partiya sədrinin əmisi oğlu ölkəyə İŞİD-i çağırırsa, baş kəsməyi doğru hərəkət sayırsa, bunların gerçək mahiyyəti o zaman nə olur? Üzərindən neçə gün keçməsinə baxmayaraq, AXCP rəhbərliyi bəyanat verərək, bu biabırçı bəyanatı pisləməyib, ona rəsmən qoşulmadığını bəyan etməyib. Bu da o deməkdir ki, başda Əli Kərimli olmaqla, təşkilat bu bəyanı qəbullanır.

Bu çağırış, yəni İnqilab Kərimovun statusu üç gündür facebookda dolaşır. Əgər Əli Kərimlinin də mövqeyi təxminən belə olmasaydı, o, öz əmisi oğlunun statusunu çoxdan silərdi. Məsələ ondadır ki, AXCP adlanan qurumda kimsə Əli Kərimlinin maraqlarından kənar nəsə yaza bilməz. Sosial şəbəkədə də cəbhəçiləri məhz Əli Kərimli yönləndirir. Onun ətrafındakı adamlardan hansısa biri özünə sərf etməyən status, hətta şərh yazdıqda dərhal müdaxilə edərək sildirir. Lakin üç gündür İnqilab Kərimovun statusu sosial şəbəkədə dolaşır və xeyli cəbhəçi də ona dəstək verməkdə davam edir.



İnqilab Kərimov, Fransa



Inqlab Kerimov
8 dk.

İŞİD hecdə hər adamin başini kəsmir...İŞİD 5 manata sifarişlə məhkəmə zalini dolduranlarin başini kəsir...İŞİD adini dindar qoyub,cindarliqla məşgul olanlarin başini kəsir....İŞİD adini müxalifər qoyub,nazirliklərə dal qapidan girib,cixanlarin başıini kəsir...Və düşünürəm ki,düz də edir...Azərbaycana XOŞ gəlirsən İŞİD...

Beğen · Yorum Yap · Paylaş

Orxan Carçı bunu beğendi.

Orxan Carçı razi.
Beğen · Yanıtla · 1 · 6 dk.

Baybek Tebrizli Cinayətkarları bəyənən, qeyri insanin işlərini belə qəbul edən və Azərbaycanı vəhşilərə hədiyyə edən heç görməmişdim!!!

Digər bir məsələ də ondadır ki, İnqilab Kərimov, yuxarıda da yazdığımız kimi, Azərbaycanda siyasi təqiblərə məruz qalması iddiası ilə Fransadan siyasi sığınacaq alıb. Fransada yaşayan bir adamın İŞİD-ə dəstək verməsi, heç şübhəsiz ki, Fransa hökumətini də qayğılandıracaq. O da şəksizdir ki, terrorçu şəbəkəyə aşkar dəstək verən birini Fransa kimi ölkə öz hüdudlarında saxlamaz. Böyük ehtimalla, bu məsələ Fransa hökuməti tərəfindən araşdırılacaq və İ.Kərimovun Fransadan deportasiyası qaçılmaz olacaq...

Məsələnin hüquqi tərəfinə gəlincə, ekspertlər bildirir ki, İnqilab Kərimovun statusu terrora çağırışdır. Bu, birmənalı şəkildə ağır cinayət tərkibi yaradan əməldir.

Siyasi baxımdan isə Azərbaycan dövlətinə hər tərəfdən dişlərin qıcandığı bir vaxtda belə bir təxribatı törətmək ölkəmizə sırf düşmən münasibətdir. Beləliklə, AXCP rəhbərliyinin xalqımıza, dövlətimizə münasibəti ortadadır. Bu düşüncəli insanların hakimiyyət iddiasının özü belə son dərəcə təhlükəlidir, nəinki iqtidar olmaları.

İnqilab Kərimovun facebook statusuna diqqət edərkən onun kriminal mahiyyətli olmasını sübut edən daha bir fakt ortaya çıxdı. Belə ki, İ.Kərimov



qarşısında tapança şəkil çəkdirərək onu paylaşıb. Belə aydın olur ki, əgər Əli Kərimlinin əlində bir balaca səlahiyyət olsa, onun adamları özləri dedikləri kimi, insanların başını kəsər, güllələyib öldürərlər.

❑ T.ƏHMƏDLİ

# Ermənistana qaçan türk prokurorlar tapıldı

## Onların Almaniyada Gülən qrupuna məxsus otelə sığındığı deyilir; **Ərdoğan rəsmi Berlini xəbərdar elədi:** "Özü təhvil verməsəniz..."

**Ötən həftə Gürcüstana, daha sonra Ermənistana qaçaraq iz itirməyə çalışdıqları deyilən türkiyəli sabiq prokurorlar - Zəkəriyyə Öz və Cəlal Karanın yeri aşkarlanıb. Barələrində məhkəmənin həbs qərarı verməsindən sonra ölkəni tərk edən eks-prokurorların Almaniyada olduqları məlum olub.**



Zəkəriyyə Öz

Zəkəriyyə Öz və Cəlal Karanın Almaniyanın Frankfurt şəhərinin 25 kilometrliyindəki Hanay qraflığında yerləşən və Fətullah Gülən qrupuna məxsus oteldə olduqları müəyyən olunub (anspress). Qeyd edək ki, Türkiyə Ədliyyə Nazirliyi axtarışda olan sabiq prokurorların ekstradisiyası üçün Almaniyada olan həmkarları ilə danışıqlara başlayacaq.

Türkiyədə İstanbulun 3 keçmiş prokuroru barəsində dövlət çevrilişinə cəhd ittihamı ilə həbs-qətimkan tədbiri seçilib. İddiaya görə, Gülən hərəkatının üzvü olmaqda şübhəli bilinən dövlət ittihamçıları Zəkəriyyə Öz, Cəlal Kara və Mehmet Yüzgeç demokratik yolla seçilmiş hökuməti devirmək məqsədilə 2013-cü ildə korrupsiya qalmaqalına səbəb olmuş, hakim AKP partiyasının rəsmilərinə yönəlik 17 dekabr və 25 dekabr əməliyyatlarını təşkil edib. Dövlət çevrilişinə cəhd maddəsiylə ittiham olunan prokuror Öz mayın 12-də tutduğu vəzifədən kənarlaşdırılıb.

Sabiq prokurorların yeri dəqiqləşəndən sonra Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğann Almaniyaya xəbərdarlıq edib. Ərdoğan Zəkəriyyə Özü təhvil verilməzsə, gələcəkdə onun ölkəsi də Almaniyaya heç bir cinayətkarı verməyəcəyini bəyan edib. Musavat.com-un məlumatına görə, bu barədə "Today's Zaman ttp://www.todayszaman.com/diplomacy_erdogan-tells-germany-no-extradition-of-criminals-if-it-doesnt-give-up-turkish-prosecutor_396543.html" nəşri yazıb.

Maraqlıdır ki, Türkiyə prezidenti belə bir hədəni İnterpolun həbs üçün "qırmızı order" verməsini gözləmədən dilə gətirib. Onun sözlərinə görə, "qırmızı order" tezliklə həm Zəkəriyyə Öz, həm də Almaniyada olduğu deyilən digər prokuror Cəlal Kara üçün veriləcək.

"O zaman baxacağıq görək, Almaniya nə edəcək. Əgər Özü təhvil verməsə, Ərdoğanın imzası ilə hansısa cinayətkarın onlara veriləcəyini heç vaxt görməyəcək. Türkiyə primitiv ölkə deyil", - deyə o xəbərdarlıq edib.

Hələlik rəsmi Berlindən bu xəbərdarlıq və hədəyə reaksiya gəlməyib.

Xatırladaq ki, 2013-cü ilin dekabrın 17-də Baş Prokurorluğun göstərişi ilə Türkiyə polis idarəsinin Maliyyə cinayətlərinə qarşı şöbəsinin keçirdiyi əməliyyat nəticəsində korrupsiya ittihamı ilə 47 nəfər o cümlədən, Türkiyənin Ətraf Mühit və Şəhərsalma Nazirliyi, Mənzil Tikinti Nazirliyindən olan bir neçə rəsmi, türk nazirlərin bir neçə övladı saxlanılmış, həmçinin daxili işlər naziri Müəmmər Gülər və iqtisadiyyat naziri Zəfər Çağlayan istintaqa cəlb olunmuşdu.

❑ NURLAN

# REAL sədri əfv ərizəsi yazıbmı?

## Yayılan xəbərlərin yalan olduğu deyilir; **Vəfa Məmmədova:** "Əgər belə şey varsa..."; **Fuad Ağayev:** "Əfv yazması xəbəri həqiqətə uyğun deyil"

**Hazırda həbsdə olan REAL sədri İlqar Məmmədovla bağlı son günlərdə yaşananlar mətbuatın gündəmini zəbt edib. Avqustun 14-də onun həbsxanadan yayılan bəyanatı mətbuata bomba kimi düşdü. Hər kəs bəyanatda yer alan fikirlərdən narahatlıq hissi keçirdi.**

REAL sədri açıq şəkildə 2 saylı cəzaçəkmə müəssisəsində əfv ərizəsi yazmadığı üçün ciddi təzyiqlərə məruz qaldığını bildirərək, həyatına olan təhlükələrlə bağlı ictimaiyyətə müraciət etmişdi. İ. Məmmədov həbsxanada rentgen yoxlamasından imtina etdiyini, nəticədə cəzaçəkmə müəssisəsinin rəis müavini Emin Həsənov tərəfindən hədələndiyini də bildirib.

Onun bəyanatından sonra bəzi iddialar ortaya atıldı. REAL sədrinin 2014-cü il iyulun 22-də əfv ərizəsi yazdığı bildirildi. Belə ki, Ədliyyə Nazirliyi Penitensiar Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaşar İsakov mətbuata açıqlamasında İlqar



Məmmədovun əfv ərizəsi yazdığını bildirərək, istənilən an ərizəni ictimaiyyətə təqdim edə biləcəklərini vurğulayıb.

Yayılan məlumatlardan biri də, vicdan məhbusunun bəyanatından sonra "kars"a salınması ilə bağlıdır. Y.İsakov bu xəbərin də həqiqətə uyğun olmadığını bildirib.

Siyasətçinin həyat yoldaşı Vəfa Məmmədova "Yeni Müsavat"a açıqlamasında onun "kars"a salındığını təsdiq, əfvlə bağlı müraciət yazmasını isə inkar etdi: "Hazırda "kars"da deyil. Amma bəyanatdan sonra "kars"a salındığı doğrudur. Qısa zamanda orada qalıb. Şənbə günü onunla danışdım. Danışmağa 15 dəqiqə icazə verirlər. Vəziyyətinin normal olduğunu dedi. "Kars"da bir saat qaldığını söylədi. Onun barəsində deyilən sözlər yalandır. İlqar Məmmədov əfv ərizəsi yazmayıb. Əgər belə şey varsa, çap etsinlər, cəmiyyətə təqdim olunsun. Bu təzyiqlər ona əfv ərizəsi yazdırmaq üçün edilir. Başqa səbəb ola bilməz. Sağlamlığa ilə bağlı heç bir problem yoxdur. Sadəcə, baş verən insident müayinə etmələri ilə bağlı olub. İstəməyib ki, rentgen şüalarını qəbul etsin. Çünki şüalar insana pis təsir edir. Ona görə imtina edib".

REAL sədrinin vəkili Fuad Ağayev də onun əfv ərizəsi yazması xəbərinin yalan olduğunu qeyd etdi: "Avqustun 15-də İlqar Məmmədov mənə zəng etdi. Bildirdi ki, avqustun 14-də "kars"a salınıb. Bir saata yaxın orada olub. Görünür sonradan rəhbərlikdən göstəriş gəlib. Nəticədə karserdən çıxarılıb. Onun əfv ərizəsi yazması xəbəri həqiqətə uyğun deyil. Əfv ərizəsi adı altında müraciəti olmayıb. Xəbərlər tam yalandır. Yaxın günlərdə onunla görüşəcəm. Baş verənləri müzakirə edəcəyik".

❑ Cavanşir ABBASLI



# Tələbə atası olmağın faciəsi

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Sərlövhəyə baxıb heç də təəccüblənməyin. İstirahətdə olduğum günlərdə kəndimizə qonşu olan Lerikin ucqar yaşayış məskənində baş verən faciəli hadisənin şahidi olmasaydım, bəlkə mən də bu barədə deyilənə inanmazdım. Tələbə adını qazanmaq heç də həmişə sevinc gətirmirmiş. Necə ki, mənim uşaqlıqdan tanıdığım Buludxan bu sevinci yaşaya bilməyib 47 yaşında dünyasını dəyişdi.**

Oğlu Lənkəran Dövlət Universitetinə qəbul olubmuş. Eşidəndə həm sevinib, həm də qalıb çıxılmazda. Təhsil haqqı üçün təcili 1500 manat lazımmış. Nə həyətdə satmağa artıq heyvan-qara qalmayıb, nə aylıq maaşı var, nə də... Gümanı gələn insanlara borc üçün müraciət edib, ancaq əksəriyyətin bankdan asılı qaldığı bu ağır dönəmdə aldığı cavab müsbət olmayıb.

Elə dünyasını dəyişən gün də bir neçə nəfərə zəng edibmiş, yas yerində danışırdılar. "Dedi uşağı oxutmasam, bunu heç vaxt özümə bağışlamaram, bu boyda zəhmət çəkib", -bunu da yaxınlarından biri söylədi. Elə söhbət əsnasında ürəyində ağrıların olduğunu deyibmiş. Həkimə getməyi təklif edənlərə isə belə deyib: "Qoy uşağı yerbəyer edim, sonra gedərəm..."

Bu, bir tələbə atasının faciəsi deyil. Bu, heç bir ailənin, onun tələbə adını almış, indi gözüyaşlı qalmış oğlunun da müsibəti deyil. Mən qəbiristanlıqda tez-tez donub qalmış, gah atasının qazılmış məzarına, gah da cansız nəşinə tərəf göz gəzdirən tələbə oğlana baxırdım. Yəqin ki, özünü də qınayır, tələbə adını qazanmasaydı, bu faciə baş verməzdi, deyə... Ancaq övlad nə bilsin ki, ailəsinə sevinc bəxş etdiyi yerdə təhsil haqqı xəbəri bir güllə kimi atasının ürəyini dəlib keçəcək. Elə oğlunun qolları üstündə keçinibmiş Buludxan. Qonşu kənddən həkim gələndə çox gec imiş.

Hər tələbə qəbulu ilə bağlı imtahanlardan sonra tələbə adını qazana bilməyənlərin intihar xəbərini eşidirik. Elə bu il də eyni faciələr yaşandı. Amma unuduruq ki, tələbə adı qazanan, ancaq ödənişli təhsilə düşənlərin də faciəsi yaşanır. Ölkə insanının yarıdan çoxu banklardan asılı vəziyyətdədir. Belə bir durumda təhsil haqqını ödəmək çox ağır dərddir, buna ürək dözmür, necə ki, haqqında bəhs etdiyim valideyn dözmədi. Dəfn mərasimində olarkən beynimdən bir fikir keçdi: bu yerlərdə insanlar övladlarının əsgərlikdə cəbhə xəttinə düşməsini daha sakit qarşılayır, nəinki balaları ödənişli təhsilə düşəndə. Birinci halda "Allah saxlayar" deyirlər, ancaq ikinci halda yüksək təhsil haqqını ödəməmək variantı yoxdur.

Hələ bu, bir müşahidədir. Görün, nə qədər belə səssiz faciələr, ölümlər var. Nə vaxta qədər valideynlər övladlarının təhsil haqqını ödəmək dərdini daşıyacaq? Niyə belə olmalıdır? Axı, bu məmləkətin insanı heç olmasa uşaqlarının problemlərini həll edəcək qədər imkanlı olmalıdırlar. Mənim tanıdığım Buludxan çox zəhmətkeş adam idi. Hətta həyatının son günündə ürəyində sancılar olsa da, həyətdə odun doğrayırmış, ailə-uşaq üçün qışa hazırlıq görürmüş. Ancaq işsizlik, alternativin olmaması onu çarəsiz vəziyyətə qoyubmuş.

İşsizlik, insanları çox karıxdırıb. Qızıldaş, Güzdək, Lökbatana, daş karxanalarına işləmək üçün gedənlər də son vaxtlar geri dönməkdədir, tikinti dayanıb, daş alan yoxdur deyə. Yenə qabaqlar gənclər ilin 5-6 ayını karxanalarda işləyib çörəkpulu qazanırdılar. İndi yeganə variant qalıb-Ağdam rayonunun işğalda olmayan ərazilərində əkilmiş soğan sahələrində iş ardınca gedirlər. Kisəsi 70 qəpiyə (!) soğan yığımına...Belə durumda övladın da pullu təhsilə düşsün, təbii ki, sadə məsələ deyil.

İllərdir yazırıq, danışırıq, parlamentdə də məsələ qaldırılır. Nələrdən? İcbari tibbi sığortadan. Əgər vətəndaşların tibbi sığortası olsaydı, 4 uşaq atası həkimə müraciəti oğlunun təhsil haqqının ödənilməsindən sonraya saxlamazdı, xəstəxanaya gedib hüquqları çərçivəsində müayinə olunardı. İllərdir tələbə kreditləri barədə deputatlar təklif verir. Tələbələrə güzəştli kreditlər verilsəydi, heç bir kasıb ata övladının pullu təhsilini özünə dərd eləməzdi. Niyə biz bu günümüzə, həm də elə gələcəyimizə laqeydik, niyə heç olmasa dünya təcrübəsindən yararlanıb vətəndaşlarımıza gün ağlamırıq?

**Ötən həftənin ən səs-küylü hadisələrindən biri həbsdə olan Sülh və Demokratiya İnstitutunun (SDİ) rəhbəri Leyla Yunus və həyat yoldaşı Arif Yunusa oxunan hökm oldu. Qərara əsasən, SDİ rəhbəri 8 il yarım, A.Yunus isə, 7 il müddətinə azadlıqdan məhrum edildilər. Hökmdən dərhal sonra beynəlxalq təpkilər gəldi.**



# "Yunuslara çıxarılan hökm Qərblə münasibətlərə təsir etməyəcək"



Natiq Miri

## Natiq Miri: "Bu prosesdə ən ziyan görən ölkə Azərbaycan ola bilər..."

Avropanın nüfuzlu təşkilatları qərara kəskin reaksiyalarını verərək, Azərbaycan hakimiyyətindən Yunusların dərhal azadlığa buraxılmasını tələb etdilər. Öndə gedən bütün təşkilatların reaksiyalarının şahidi olduq. Verilən bəyanatlarla bağlı eyni zamanda iqtidarın mətbuat orqanı "Azərbaycan" qəzeti həmin beynəlxalq təşkilatlara növbəti yaylım atəşini açdı. Hökmün tam ədalətli verildiyi, beynəlxalq təşkilatlarının bəyanatlarının qərəzdən doğduğu bildirildi.

Bəzi ekspertlər hesab edirlər ki, Yunuslara oxunan hökm Azərbaycanla Avropa dövlətləri, xüsusilə, ABŞ və Fransa arasında münasibətləri daha da kəskinləşdirəcək. Lakin politoloq Natiq Miri deyilənlərlə razılaşmır. O hesab edir ki, Yunuslara verilən hökm Azərbaycanla Avropa arasında münasibətlərin gərginləşməsinə səbəb olmayacaq: "Avropa ABŞ-dan fərqli olaraq, daha yumşaq və liberal siyasət yürüdür. Daha çox öz maraqlarına uyğun addımlar atan bir məkandır. Fransa da istisna təşkil etmir. Düşünmürəm ki, Leyla xanım və həyat yoldaşı Arif Yunusdan ötrü Avropanın böyük dövlətləri münasibətləri gərginləşdirəcəklər. Amma ABŞ-ın yürütdüyü siyasət tamam başqa istiqamətdədir. Bu gün Rusiyaya qarşı dirənən, bu ölkəni əzib keçmək istəyən tək ölkə ABŞ-dır. Son proseslər onu göstərir ki, Amerika siyasətində ciddidir. Düşünürəm ki, bu siyasət davam edəcək. Bu kontekstdən yanaşaraq, hesab edirəm ki, avtoritar ölkələrə münasibət də dəyişməyəcək. Çünki Amerika anlayır ki, postsovet ölkələrinin nüvə silahı cəhətdən əsas mərkəzi ölkəsi Rusiyadır. Rusiya üzərində nailiyyət qazanılsa, avtomatik olaraq, digər ölkələrdə proseslər dəyişəcək. Ona görə də, Azərbaycanda insan hüquqları və demokratiya məsələsində Amerikanın öz prinsiplərindən vaz keçəcəyini gözləmirəm. Düşünürəm ki, bu siyasət davam edəcək. Bu süreçdə ən ziyan görən ölkə Azərbaycan olacaq. Çünki informasiya cəhətdən hakimiyyətə yaxın mətbuat orqanları ABŞ-a müharibə elan ediblər. Digər tərəfdən də, məmurlar neft-qaz məsələsində Amerikanın böyük rolunun ola biləcəyini vurğulayırlar. Burada məntiqi anlamaq mümkün deyil. Bakı-Tiflis-Ceyhan layihəsi ABŞ-ın iradəsi hesabına reallaşdı. Hazırda Avropa ölkələri demək olar ki, Amerikanın əlavəsi qismində çıxış edirlər. Əvvəlcə ABŞ addım atır, arxasında Avropa Birliyi buna uyğun qərarlar verir. Ona görə də, Azərbaycan və Avropa arasında münasibətlərin pozulacağı gözlənilmir. ABŞ-ın bütün mənada alternativləri var. Siyasətindən də heç zaman vaz keçməyəcək. Azərbaycan bunu nə qədər tez anlasa, bir o qədər müsbət olacaq".

Natiq Miri Yunuslara olan dəstəyin prinsipiallıqdan doğduğunu da qeyd etdi: "İnsan haqları ABŞ və Avropa üçün prinsipial məsələdir. Həmin dövlətlərin fundamenti bunun üzərində qurulub. Yunuslar da bu sahədə fəaliyyət göstərən, Qərbdə ciddi şəkildə tanınan şəxslərdir. Bu baxımdan onların müdafiə olunmaması, bu ölkələrə üz qarası gətirər, nüfuzlarını ciddi mənada korlayardı. Ona görə bu dəstək gözlənilən idi. Amma hələ də bu məsələlər siyasi bəyanatlardan o tərəfə getmir. Prezident, hakimiyyət nümayəndələri ilə görüşlərdə bu məsələlər dəfələrlə qaldırılıb. Amma məsələyə ciddi tərəfdən yanaşıldığını, vazkeçilməz olmadığını görmürəm. Bunlar olacağı təqdirdə, hakimiyyətdən adekvat addımlar görəcəyik. Ciddi reaksiyaların olmadığı onu göstərir ki, bu məsələlərdən hələ ki formal olaraq istifadə olunur".

❑ Cavanşir ABBASLI

# Partiyalar "toqquşan dairələr"də güzəştə gedəcəkmi...



**Elman Fəttah:**
"Nüfuzlu namizədlərin ümumi müdafiə olunması məsələsi prinsiplərimizdən biridir"



**İqbal Ağazadə:**
"Heç bir siyasi qurumun namizədinə güzəştə getməyəcəyik"



**Mirmahmud Mirəlioğlu:**
"Onlara güzəştə getmək vətəndaşlarımızın haqqını yeməkdir"

**Noyabrın 1-də keçiriləcək parlament seçkiləri yaxınlaşır. Artıq siyasi qurumlar namizədlərini elan etməyə başlayıblar. Seçkilərlə bağlı hələ ki, iki blok yaradılıb. Bunlar "Azadlıq-2015" seçki bloku və "Ağ Blok" dur.**

Müxalifət partiyalarının bu seçkilərdə bir-birilərinə güzəştə gedib-getməyəcəkləri maraq doğurur. İndiyə qədər dəfələrlə bunun şahidi olmuşuq ki, demokratik düşərgə bloklar şəklində seçkilərdə iştirak ediblər. Nəticədə namizədlərin toqquşması halları bir o qədər də müşahidə olunmayıb. Amma hazırda gedən proseslər onu göstərir ki, bu il tam əksi olacaq. Çünki bəzi qurumların namizəd siyahıları artıq məlumdur. Ümid, VHP partiyaları və "Azadlıq-2015" seçki bloku bu silsilədəndir.

Müsavat başqanının müavini Elman Fəttah indiyə qədər hər hansı bir namizədin müdafiə olunması ilə bağlı partiyaya müraciət daxil olmadığını bildirdi: "Demokratik düşərgənin ən nüfuzlu namizədlərinin ümumi müdafiə olunması məsələsi bizim siyasi xəttimiz və prinsiplərimizdən biridir. Amma indiyə qədər Müsavat Partiyasına namizədliyinin müdafiəsi ilə bağlı müraciət edən nə siyasi partiya, nə də şəxslər var. Bu məsələlər namizədlərin elan olunması və qeydiyyat zamanında intensiv hal alacaq. Həmin dövrdə namizədlər öz təşəbbüsləri ilə danışıqlar apararlar. Demokratik düşərgənin namizədlərinin bir-birilərinin əleyhinə kampaniya aparmamaları, seçki dövründə mübarizələrinin ümumiləşdirilməsi, o cümlədən, seçkilərdə qanun pozuntuları ilə bağlı hesabatların hazırlanması istiqamətində müəyyən əməkdaşlıqlar olmalıdır. Bu yöndə işlərimizi davam etdirəcəyik. Müsavat seçkilərə partiya şəklində gedir. Hər hansı bir blokda təmsil olunmaq fikri yoxdur. Seçkilərə öz namizədlərimizlə gedəcəyik. Hər hansı bir siyasi nüfuzu olan namizəd müdafiəsi ilə bağlı partiyamıza müraciət edərsə, təbii ki, bu məsələni müzakirə edərik. İndiyə qədər güzəştlərlə bağlı müzakirələr partiyada olmayıb. Mən özüm bunun partiyada müzakirəyə çıxarılmasını istəmirəm".

Ümid Partiyasının sədri İqbal Ağazadə heç bir siyasi qurumun namizədinə güzəştə getməyəcəklərini kəsinliklə qeyd etdi: "Heç bir siyasi qurumun namizədinə güzəştə getməyəcəyimiz birmənalıdır. Sadəcə ayrı-ayrı şəxslər var ki, tərəfimizdən dəstəklənəcəyi halda, onların məsələsinə baxacağıq. Blok yaratmaqda qərarlıyıq. Bu istiqamətdə danışıqlarımız gedir. Blok yaradılarsa, bir-birilərimizə güzəştə gedəcəyik".

"Azadlıq-2015" seçki blokunda təmsil olunan partiyalardan KXCP sədri Mirmahmud Mirəlioğlu bu məsələ barədə indidən danışmağın tez olduğunu qeyd etdi: "Konkret zamanında bu məsələdən danışmaq olar. Ümumiyyətlə, indidən bunu düşünməyə bizim üçün yoxdur. Hazırda blok olaraq, yalnız "Azadlıq-2015" var. Başqa bir kimsəni görmürük. Olarsa, o zaman baxarıq. Mənə elə gəlir ki, tanınmışlar, partiya liderləri kimi məsələlər zamanında həll olunacaq. Kim nə dərəcədə tanınmışdır, bunları müəyyənləşdirmək lazımdır. Elə tanınmış şəxslər var ki, onlara heç zaman güzəştə getmək olmaz. Onlara güzəştə getmək əslində qalsa, vətəndaşlarımızın haqqını yemək deməkdir. Amma elə adamlar da var ki, onlara güzəştə getməsən, qəbul etməsən, haqsızlıq olar. Ona görə də, hər kəsi fərdi şəkildə zamanında dəyərləndirmək lazımdır. Əsas məsələlərdən biri də odur ki, tanınmış dediyimiz şəxslər namizədliklərini irəli sürməyiblər. Biz onların əvəzindən niyə danışmalıyıq?"

❑ Cavanşir ABBASLI

# Mənimsənilən milyonlara görə hesab zamanı gəldi

**Nəqliyyat naziri Ziya Məmmədovun oğlu, Amerika-Azərbaycan Alyansının rəhbəri Anar Məmmədovun lobbiçilik fəaliyyətindən uzaqlaşdırılmasına qərar verilib. Bu barədə qəzetimizə mötəbər qaynaqlardan informasiya daxil olub. 2011-ci ildə Amerikada Azərbaycanın lobbi işinin aparılması məqsədilə A.Məmmədovun rəhbərliyi ilə yaradılan qurumun fəaliyyətsizliyindən iqtidarda çoxdan narazılıq var idi.**




## Ziya Məmmədovun oğluna ağır zərbə: Amerika yolu bağlanır...

İqtidar Anar Məmmədovun rəhbərlik etdiyi Azərbaycan-Amerika Alyansının fəaliyyətinə son verir; SOCAR ABŞ-da lobbi təşkilatları ilə müqavilə bağladı; hakimiyyət lobbi adına xərclənən pulların hesabını sormağa başladı...

Vaxtilə geniş piar-propoqandası aparılan Alyansın son aylar, ümumiyyətlə, fəaliyyəti barədə hər hansı məlumat yoxdur. Hər il 28 mayda Vaşinqtonda ənənəvi tədbir düzənləyən, daha doğrusu, ziyafət verən, lobbi təşkilatları rəhbərləri, senator və konqresmenlərlə fotolarını paylaşan A.Məmmədov bu il səssiz qaldı, Respublika Günü Azərbaycanın ABŞ-dakı səfirliyi səviyyəsində qeyd edildi.

Prezidentliyə sabiq namizəd Hafiz Hacıyev hələ bir müddət əvvəl Amerikadan Azərbaycan hakimiyyətinə artan təzyiqlərdən danışarkən sensasion sayıla biləcək açıqlama vermişdi: “Mən Azərbaycanın düşdüyü bu vəziyyətdən çıxmaq üçün yalnız bir yol görürəm. Dövlətə, prezidentə xəyanət edən adamların hamısı istefaya getməli və həbs edilməlidir. Siyahıda bir neçə nazir var. Hansı ki, övladları Vaşinqtonda 10 milyona qədər vəsait xərcləyib, dədələrinin təbliği ilə məşğuldurlar. Xaricdən stenoqramlar gəlməlidir, Konqres, Senat üzvlərinə ”kifayət qədər pulumuz var, dədəmi müdafiə edin", - deyə o bildirmişdi.(http://modern.az/articles/77565/1/). H.Hacıyev ad çəkməsə də, “daşı kimin bostanına atdığı” aydın idi.

Xəbərlərə görə, bir neçə gün əvvəl nəqliyyat naziri Anar Məmmədov təsisçisi olduğu Azərbaycan-Amerika Alyansının yarıtmaz fəaliyyətinə görə Prezident Administrasiyasında sorğu-suala çəkilib, təşkilata ayrılan pulların hesabı sorulub (“Azadlıq”qəzeti). “Bəzi məlumatlara görə, təşkilata ayda təxminən 3 milyon dotasiya ayrılır” - xəbərdə iddia olunur. Təşkilatın büdcəsi ilə bağlı hələ indiyədək heç bir rəsmi məlumat verilməyib. Bəzi iddialara görə, yarandığı ilkin dövrdə Alyansın maliyyəsini hakimiyyətdə geniş maddi sərvətlərə sahiblənmiş Məmmədovlar klanı öz üzərinə götürübmüş. Amma bu, heç də o demək deyil ki, bu pullar Məmmədovların öz şəxsi büdcəsindən xərclənib və iqtidar bunun hesabını aparmayıb. Belə görünür ki, iqtidar Məmmədovların fiaskosunun səbəbləri ilə yanaşı, Alyansın maliyyə pripiskasını da araşdırır.

ABŞ Ədliyyə Nazirliyi təkcə 2013-cü ildə A. Məmmədovun “Fabiani & Company” lobbi şirkətinə son illərdə üst-üstə 5 milyon dollar ödədiyini açıqlamışdı. Buraya qeyri-rəsmi ödənişləri də əlavə etsək, iqtidarın xərclənən milyonların hesabını aparmaqda heç də xırdaçılıq etmədiyi aydın olar.

Yeri gəlmişkən, ötən ayın sonunda Amerikanın “Mother Jones” online jurnalı “Donald Tramp mübahisəli azərbaycanlı oliqarxla ortaq biznes qurub” başlıqlı araşdırma yazısında nazir oğlunun sərvəti barədə də yazmışdı. Məqalədə bildirilirdi ki, Anar Məmmədovun rəhbərlik etdiyi “Garant Holdinq”in dəyəri 1 milyard dollardan çoxdur və o, “Tramp Hotel” brendi üçün ABŞ-da respublikaçıların prezidentliyə namizədi Donald Trampa 2.5 milyon dollar ödəyib. Yəni ortaya çıxan mənzərə budur ki, iqtidar bu təbliğatdan xeyir görməsə də, Məmmədovlar daha da varlanıb, hətta ABŞ prezidentliyinə milyarder namizədlə şərikli biznes qurmaqla siyasi və iqtisadi güclərini də artırmağa nail olublar.

SOCAR-ın ötən həftə Amerikanın lobbi təşkilatları ilə iki müqavilə imzalaması A.Məmmədovun lobbi fəaliyyətindən uzaqlaşdırılması barədə xəbərləri təsdiqləyir. “The Hill” qəzeti xəbər verir ki, SOCAR “Global Policy İnitiatives” və “30 Point Strategies” adlı lobbi firmaları ilə ötən ay müqavilə bağlayıb (virtualaz.org).

Müqavilələr barədə məlumat Amerika qanunvericiliyinə uyğun olaraq Ədliyyə Departamentinin məlumat bazasında yerləşdirilib. Bildirilir ki, SOCAR Amerika lobbi firmaları ilə iyulun 22-də müqavilə imzalayıb. Müqavilələrdən birinə əsasən “30 Point Strategies” KİV, Birləşmiş Ştatlar hökuməti və Konqresi qarşısında meydana çıxan məsələlər və ictimai işlərlə bağlı SOCAR-a məsləhətlər verəcək. Bu xidmətin əvəzində firma ayda 17500 dollar alacaq.

“Global Policy İnitiatives” firması isə həmin xidmətlərə görə SOCAR-dan ayda 7500 dollar alacaq. Firmalar SOCAR-ın maliyyə dəstəyi hesabına bir qrup Konqres üzvünün Bakıya səfəri ətrafında xüsusilə erməni lobbisinin ABŞ-da qızışdırdığı qalmaqalla da məşğul olacaq. İlk baxışdan burada A.Məmmədova toxunacaq bir məsələ olduğu görünmür. Çünki SOCAR varlı bir şirkətdir və istədiyi lobbi təşkilatı ilə əməkdaşlıq edə bilər. Amma bizim mənbənin məlumatına görə, Alyans bir neçə ildir ki, Amerikada Azərbaycan xeyrinə lobbi fəaliyyətini “monopoliyaya” alıbmış. Alyans hər cür lobbi fəaliyyətini öz üzərinə götürərək, Azərbaycanın bütün maraqlarını qoruyacağına vəd veribmiş. Məmmədovların indi bu qədər sorumlu tutulmasının əsas səbəblərindən biri də sonucda öhdəsindən gələ bilmədikləri həmin vəd olub. SOCAR-ın indi özünü erməni lobbisinin hücumlarından qorumaq üçün həm də çox az miqdarda pul müqabilində müqavilə imzalaması Alyansa inamın tam itdiyinə işarədir.

Bu baxımdan SOCAR-ın Amerikada ona edilən hücumlara görə özünü müdafiə etmək üçün lobbi firmalarına sifariş verməsi başadüşüləndir. İqtidarın Beynəlxalq Banka kredit borcu olan oliqarxlarla bağlı sərt mövqeyi onu deməyə əsas verir ki, neft pullarının tükəndiyi bir vaxtda mənimsənilmiş hər dolların hesabını aparacaq və kimsəyə aman olmayacaq.

❑ **“Yeni Müsavat”**

# İcazəli vəfadarlıq



**Samir SARI**

**Dosta, yoldaşa qarşı vəfadar olmaq yaxşı şeydir, adamın vicdanına rahatlıq gətirir, bəzən hətta bir çoxlarını kövrəldir də. Bu təkcə insana xas özəllik deyil, türkün sözü. Elə heyvanlar var ki, bu xüsusda insanlardan da üstündürlər - məsələn, itlər və atlar. Tez-tez internet resurslarında itlərin və atların vəfadarlığına aid şəkillər, videolar paylaşırlar. Bir də görürsən, bir vəfalı köpək vəfat etmiş sahibinin məzarı üstündən ayrılmır, ya da onu hər gün ziyarət edir. Adam baxır, gözü yaşarır.**

Bu baxımdan insan olan kəs gərək bu məsələdə, heç kəsin xətrinə dəyməsin, ən azı it qədər vəfalı olsun.

O da məlumdur ki, müasir dünyada insanlar çox etibarsızdır, qırdı-qaçdıdır, işləri düzələndən sonra ona N qədər yaxşılığı keçmiş adamı ilk və yeganə fürsətdəcə tərk edir, unudur, daha pisi, çox ucuz qiymətə satırlar.

Ona görə də dara düşmüş dostuna, yoldaşına vəfalı olan, vəfadarlıq nümunəsi göstərən hər bir şəxs bir qayda olaraq təqdir olunur.

Heç demə, gün gələcəkmiş, vəfalı itin hərəkətinə biganə qala bilməyən adamlar insanların vəfadarlıq nümayişini təqdir edə bilməyəcəklərmiş, əksinə, tənbeh edəcəklərmiş.

Bu istisna hal srağagün bizim ölkəmizdə yaşandı.

Futbol üzrə milli çempionat çərçivəsində keçirilən AZAL-"Qəbələ" oyununda rəqiblərinin qapısına iki qol vuran qəbələlilər hər qoldan sonra keçmiş kapitanlarının formasını qaldıraraq, qolu onu həsr etdiklərini, onu unutmadıqlarını gözlər önünə sərdilər və alqış qazandılar.

Hamınız bilirsiniz, Cavid Hüseynov bu gün 31 yaşını özü olmadan tamamlayan jurnalist Rasim Əliyevin ölümündə adı keçən, bu səbəbdən həbsə alınan bir futbolçudur.

Əslində, dostlarının onu unutmaması, ondan imtina etməməsi qayət normaldır, vəfadarlıq nümunəsidir.

Ancaq dostlar bəzi şeyləri qarışdırıblar. Bu, vəfadarlıq nümunəsindən çox, acıq verməyə oxşayır, vaxtsız və nakam ölmüş jurnalistin ruhuna sayğısızlıqdır.

Əgər Cavid Hüseynov hakimiyyətə, yaxud hansısa oliqarxa qarşı bir söz demiş olsaydı və bunun üstündə şərlənərək tutulsaydı, o zaman “Qələbə” komandasının üzvlərinin qol vurandan sonra belə bir hərəkət etməsini hamı alqışlayardı.

Hərçənd elə bir şey olsaydı, güman ki, “Qəbələ” komandasının üzvləri nəinki öz kapitanlarını müdafiə edər, formasını tribunalar önündə qaldırardılar, tam əksinə, yığışıb toplantı keçirər, onu söyüb-yamanlayar, ona daha ağır cəza verilməsini tələb edərdilər.

Bir adam çıxıb desin ki, belə etməzdilər. Bal kimi edərdilər.

Ancaq işin altında siyasi dissidentlik yox, öldürülmüş jurnalist varsa, meydanda forma qaldırmaq, “səni unutmadıq, sonuna qədər arxandayıq” mənası verən hərəkətlər etmək asandır.

Bu isə icazəli vəfadarlıqdır. Üstəlik, daha pisi, gənc insanın qətlinə haqq qazandırmaqdır.

Futbolçular bu qədər haqq-ədalət tərəfdarıdırlarsa, Kürdəxanı təcridxanası günahsız həbs olunanlarla doludur, bir dəfə də onlara bir qol həsr etsinlər.

Amma etməzlər. Onlarda bu cürət yoxdur.

Bu ölkədə hər kəs haqq-nahaq öz dostunun, yoldaşının tərəfini tutur. Bəlkə də avqustun 8-də baş verən dava-dalaşda jurnalistlər tökülüşüb futbolçunu təkləyib döysəydilər, döyüb-öldürsəydilər, rollar dəyişmiş olacaqdı. O zaman yəqin ki, bir qrup jurnalist yığılıb tədbir keçirəcək, qatil jurnalistlərə hansısa cür haqq qazandıracaqdılar, onlara qarşı haqsızlıq olduğunu bildirəcəkdilər. Futbolçular isə o zaman vurduqları qolu “vaxtsız və nakam ölmüş futbolçu”ya ərməğan edərək, vəfa nümayiş etdirəcəkdilər.

Bax, bu daha səmimi vəfadarlıq göstərisi olardı.

Belə görünür ki, AZAL komandasının üzvləri ya daha az vəfadardırlar, ya da vəfadarlıq nümayiş etdirməyə imkanları olmayıb, qolları çatmayıb. Bəlkə onlar da bir qol vursalar, jurnalisti döyüb-öldürənlərə başçılıq etmiş keçmiş komanda yoldaşlarının - Elşən İsmayılovun 49 nömrəli formasını yelləədəcəkdilər, kim bilir. Ancaq AZAL-dan yayılan bəyanatlar göstərir ki, komanda beş qol da vursa onlar belə etməyəcəkdilər, çünki onların vəfadarlıq göstərmələrinə yuxarılardan icazə yoxdur.

Qoy indən belə “Qəbələ” klubunun qolçuları qol vuranda futbolçular bu cür səy hərəkət eləməsinlər, ortada nahaq qan var, ölüm işi var. Jurnalistlər də birləşib vəfadarlıq eləsələr, “futbolçu-jurnalist” davası düşər.

YENİ MÜSAVAT
N 179 (6207) 17 avqust 2015



# Öldürülən jurnalistin yeddi mərasimi və ad günü...

## Rasim Əliyevin valideynləri həbs edilənlərin cəzalandırılacağına inanırlar, amma onlar həkimlərin də məsuliyyətə cəlb olunmasını tələb edirlər: "Rasim əməliyyat olunanda artıq ölmüşdü"

**Döyüldükdən sonra aldığı xəsarətlərdən xəstəxanada ölən jurnalist Rasim Əliyevin valideynləri qatillərin cəzalandırılmasını tələb edirlər. Övladlarına lazımi tibbi yardım göstərməyən həkimlərin də məsuliyyətə cəlb olunmasını tələb edən Teyfurə Əliyeva və Məmmədəli Əliyev musavat.com-un müxbiri ilə söhbətində bildirdilər ki, bir neçə gün əvvəl istintaqa ifadə veriblər.**

Rasim Əliyevin atası Səbayel Rayon Prokurorluğuna dəvət edildiklərini və ifadə verdiklərini dedi. Teyfurə Əliyeva baş verən hadisədən əvvəldən sonadək xəbərdar olduğunu və bunların hamısını prokurorluq əməkdaşlarına danışdığını bildirdi. T.Əliyeva oğlunun ölümündə günahkar olanların layiqli cəza almasını tələb edir: "Sonradan Cavid Hüseynov oğlumun döyülməsindən xəbərsiz olduğunu, həmin adamları tanımadığını deyirdi. Halbuki Rasim Cavidlə mənim yanımda danışdılar. Rasimə getmə dedim. Axı belə namərdlik nəyə lazım idi? Axı bir azərbaycanlını döymək, ondan bu dərəcə qisas almaq nəyə lazım idi? Cavidin hərəkəti haqda yazan tək Rasim deyildi axı..."

Rasimin atası məsələnin ölkə başçısı səviyyəsində nəzarətə götürüldüyündən həbs olunan şəxslərin cəzasız qalmayacağına inandıqlarını dedi: "Onların hamısı layiqli cəzasını almalıdır. Bu həbslər Rasimi geri qaytarmayacaq. Amma bir valideyn olaraq az da olsa təskinlik tapmaq üçün onların layiqli cəza almasını tələb edirik. Prezidentimiz bu məsələni nəzarətə götürüb. Hadisəyə layiqli hüquqi qiymət veriləcəyinə inanırıq".

Rasimin həmin gün görüşə getməsini bir daha xatırlayan Teyfurə Əliyeva oğlunu geri qaytarmaq üçün çox çalışdığını, lakin buna nail ola bilmədiyini dedi: "Cavidin Rasimin yazdıqlarından xəbəri olmayıb. Kimsə bu haqda Cavidə deyib. O da Rasimə zəng vurub nə yazdığını soruşub. Cavidlə Rasim çox normal danışırdılar. Amma o biriləri Rasimi söyürdülər, təhdid edirdilər. Sonra Rasim bunları mənə gülə-gülə danışdı ki, bəs belə bir hadisə olub. Amma qaydasına qoyduq, gələcəklər çay içəcəyik dedi. Arxasınca çıxdım, amma gec idi. Görmədim Rasimi. Neçə dəfə dedim ki, Rasim, qorxuram, getmə. Rasim problemini bizə demirdi. Bir dəfə də Rasimi polis vurmuşdu. Bir aydan sonra xəbər tutduq. Heç o hadisəni Rasimdən yox, əmisindən eşitdik".

T.Əliyeva oğlunun ölümündə əsas günahkarın Cavid Hüseynov olduğunu deyir. "Cavid bu hərəkəti ilə Azərbaycanın adına ləkə gətirdi. Axı bu nəyə lazım idi? Azərbaycana qarşı düşmənçilik edənlər bundan istifadə etdilər. Ramil Səfərov qəhrəmanlıq etdi, erməni öldürdü. Cavidi də qəhrəman kimi tanıdırdılar, amma tutduğu əmələ baxın. Rasim öləndə mənə deyirdilər ki, qatillər cəzasını alacaq. Deyirdim ki, bu Rasimi geri qaytarmayacaq. Kiminsə həbs edilməsi məni maraqlandırmırdı. Amma indi düşünürəm ki, bu haqsızlıq yerdə qalmamalıdır. Belə özbaşınalıq cəzasız qalmamalıdır. Rasimi necə aldatmaları, onu tələyə salmaqları mənə çox pis təsir edir. Sonradan yalanlar danışaraq işi gizlətmək istədilər. Amma indi şükürlər olsun ki, ölkə başçısı da hadisəni nəzarətə götürdü. Rahatam ki, bu şəxslər layiqli cəzalarını alacaq".

Jurnalistin valideynləri əsas günahkarlardan birinin də övladlarını müayinə edən hakimin olduğunu deyirlər. T.Əliyeva xəstəxanada olarkən Rasimi müayinə edən həkimdən dəfələrlə lazım olan müayinələrin edilməsini istədiklərini söylədi. Lakin valideynlər deyir ki, həkim onları aldadıb: "Rasimi döyənlərlə yanaşı həkimlər də cəzalandırılmalıdır. Biz həkimə yalvarırdıq ki, uşağımıza nəsə olmayıb ki? Həkim bizi aldatdı. Bizə ciddi problemin olmadığını dedi. Rasimə ağrıkəsici vurmuşdular. Rasim özü də ağrıları hiss etmirdi. Əgər Rasim çox ağrısa idi onu orada saxlamazdıq. Başqa yerə aparardıq. Ancaq Babək adlı həkim bizə dedi ki, dörd qabırğası qırılıb. Amma bu sınıqlar təhlükəli deyil. Babək həkim Rasimin yataq şəraitində qalmalı olduğunu dedi. Rasim xəstəxanaya gələndə palataya liftlə qalxdı. Rasim reanimasiyada olmalı, nəzarətdə saxlanılmalı idi. Həkimlərə yalvarırdıq ki, nə lazımdırsa edək. Ancaq dedilər ki, hər şey qaydasındadır. Gecə saat 11-dək Rasimə əlavə tibbi yardım göstərilmədi. Təxminən saat 11-də Babək həkim əməliyyata getdiyini dedi, amma qayıtmadı". Oğlunu xəstəxanada qoyub evə qayıdan Teyfurə Əliyevaya saat 1-də Babək həkim zəng edib. Həkim Rasimin vəziyyətinin qəflətən pisləşdiyini və əməliyyata aparıldığını deyib.

T.Əliyeva həmin saatları belə xatırlayır: "Mən axşam saat 11-də evə gəldim. Rasimlə evdən telefonla danışanda gecə saat 12 olardı. Atası ilə də danışırdı. Ciddi problem yox idi. Rasim Cavidin gəldiyini dedi, vəziyyətinin də əvvəlki kimi olduğunu dedi. Təxminən saat 1 olardı mənə zəng gəldi. Babək həkim idi. Dedi ki, oğlunuzun vəziyyəti ağırlaşıb, ağzından qan gəlir, əməliyyat edəcəyik. Dedim ki, necə ola bilər axı? Dedi bilmirik, anidən oldu. Biz reanimasiyaya çatanda Rasim artıq can verirdi. Həkim dedi ki, dalağını çıxardıq, vəziyyəti də çox ağırdı. Daxili qanaxması olub. Əməliyyatı aparan Saday həkim mənə dedi ki, hər şey etmişik. Saday həkim Rasimin dalağının dağıldığını, ağ ciyərinin deşildiyini, daxili qanaxmanın olduğunu dedi. Dedik ki, axı siz bizə bunları əvvəldən niyə demədiniz, niyə əvvəldən xəsarətləri müəyyən edə bilmədiniz? Babək həkim də orda idi. Dedim necə olur ki, əvvəl başqa söz, indi baş söz deyirsiniz? Bəs bunlar necə həkimdir? Bunların vicdanı yoxdurmu? Bunların balası yoxdurmu?".

Rasimin atası oğlunu əməliyyat edən həkimdən çox onu müayinə edən həkimin günahkar olduğunu və cazlandırılmasını istədiklərini söylədi: "Rasimin ölümündə həkim səhlənkarlığı yox, həkim cinayəti var. Rasim saatlarla xəstəxanada qaldı, amma onu düzgün müayinə edə bilmədilər. Biz xəstəxanaya gedəndə başqa mənzərə gözləyirdik. Dedik bəlkə Rasimin vəziyyəti həddən artıq pisdir. Amma Rasimi görəndə özümüzə gəldik. Üzündə və bədənində xəsarət yox idi. Dedik yəqin yüngül zərbələr alıb. Biz ölüm ehtimalını ağlımıza belə gətirmirdik. Əsas məsuliyyət Babək həkimin boynundadır. Əməliyyatı aparan həkim sadəcə əməliyyat vaxtı gəlib. Amma o zamanadək müayinəni Babək həkim aparıb. Daxili orqanların zədələnməsini o müəyyən etməli idi. Bu cinayətin səbəbkarlarından biri də Babək həkimdir".





### "Bəs bunlar necə həkimdir? Bunların vicdanı yoxmu? Bunların balası yoxmu?..."





Rasim Əliyevin anası oğlunun əməliyyatı ilə bağlı da müəmmanın olduğunu düşünür. Çünki saat 12 radələrində evdə olarkən Rasimlə telefonla danışıb. Bu zaman oğlunun vəziyyəti yaxşı olub. Amma gecə saat 1-dən sonra zəng edən Babək həkim T.Əliyevaya Rasimi əməliyyat etdiklərini, daha sonra isə əməliyyata apardıqlarını deyib. T.Əliyeva oğlunun belə bir qısa zaman ərzində əməliyyat olunmasını şübhəli hesab edir: "Məncə, Rasimin vəziyyəti ağırlaşdıqdan sonra vəfat edib. Həkimlər də özlərini qorumaq üçün Rasimi sonradan əməliyyat ediblər. Çox qısa əməliyyat olub. Babək həkim dedi ki, əməliyyata aparırıq, biz də taksi ilə xəstəxanaya gəldik. Amma Rasim artıq əməliyyat olunmuşdu. Hadisə necə baş veribsə araşdırılmalı və həkimlər də cəzasını almalıdır".

Qeyd edək ki, avqustun 16-da Rasim Əliyevin yeddisi və doğum günüdür. Əgər yaşasaydı, 31 yaşını qeyd edəcəkdi. Rasim Əliyevin valideynləri və yaxınları bu gün onu məzarı başında ziyarət ediblər.

Xatırladaq ki, jurnalistin ölümünə görə "Qəbələ" klubunun kapitanı Cavid Hüseynov, onun bibisi oğlu futbolçu Elşən İsmayılov, Samir Mustafayev, Camal Məmmədov, Arif Əliyev və Kənan Mədətov həbs edilib.

❑ İlkin MURADOV
Musavat.com

YENİ MÜSAVAT
N 179 (6207) 17 avqust 2015

**"Qəbələ" futbol komandasının oyunçusu Cavid Hüseynovun qohumları tərəfindən döyülərək aldığı xəsarətdən xəstəxanada dünyasını dəyişən jurnalist Rasim Əliyevin ölümündə həm də həkimlər günahlandırılır. Sosial şəbəkələrdə, xəbər portallarında mərhum jurnalistin həm də həkim məsuliyyətsizliyinin qurbanı olduğu bildirilir və bir qrup şəxslər onu əməliyyat edən cərrah, professor Saday Əliyevin də cəzalandırılmasını tələb edirlər.**

# Jurnalistin ölümündə həkimin günah payı nə qədərdir?

## Adil Qeybulla: "Günahkar olub-olmadığını ekspertizadan sonra demək olar"



Adil Qeybulla

Saday Əliyev isə mətbuata açıqlama yayaraq onun bu ölümdə heç bir günahının olmadığını bildirib.

Maraqlıdır, döyülən şəxsə ilkin müdaxilə əslində necə olmalıdır? Burada həkimi günahlandırmaq düzgündürmü?

Tibb elmləri doktoru, professor Adil Qeybulla həkimin günahkar olub-olmaması barədə bir sözü yalnız məhkəmənin tibbi ekspertizasından sonra deməyin daha düzgün olduğunu bildirdi: "Həkimin günahkar olub-olmamasını ekspertizanın rəyindən sonra demək olar. Məncə, ekspertizanın rəyi olmadan bu barədə deyilənlərin hamısı mülahizədir. Ona görə də buna tibbi tərəfdən rəy vermək üçün məhkəmə-tibbi ekspertizasını gözləmək lazımdır. Hər halda tibbi açıqlamalarda müəyyən uyğunsuzluqlar var. Bəlkə də insanları həkimin günahkar olması qənaətinə gətirən odur. Amma düşünürəm ki, ilkin səbəb döyülmədir. Əgər onu döyməsəydilər, bu hadisə də olmazdı. Tibb müəssisəsində nələr baş verdiyini tibbi ekspertizanın rəyi müəyyən edəcək. Buna görə də bir az səbirli olmaq lazımdır. Bundan sonra fikir bildirmək daha yaxşı olardı".

Döyülən insana ilk tibbi yardım məsələsinə gəlincə, A.Qeybulla şəxsin hansı vəziyyətdə olmasından asılı olaraq dəyişdiyini dedi: "Təcili yardımın xüsusiyyəti xəstədə alınan zədənin xüsusiyyətindən, suda boğulma, yanma, günvurma, əzilmə, travma, daxili qanaxmadan asılı olaraq fərqlidir. Ümumiyyətlə, həyati massiv qanaxmalar, beynin və ürəyin əzilməsi həyatla bir araya sığmayan travmalardı. Qalan travmalar şok vəziyyəti yaratdığı halda bir müddət xəstələr yaşayır. Düzgün yardım göstərilsə, həmin xəstələr yaşaya bilər. Amma ürəyin, iri damarların, beynin əzilməsi, əlbəttə ki, həyatla bir araya sığmayan travmalara aiddir və bu çox zaman ölümlə nəticələnir. Amma istənilən halda ilk tibbi yardım harada olursa olsun göstərilməlidir. Yəni qanaxmanın dayandırılması, xəstənin vaxtında tibb müəssisəsinə çatdırılması, vaxtında diaqnozun qoyulması və yardım göstərilməsi mühüm şərtdir".

❑ **Günel MANAFLI**

# "Azərbaycanda dövlətin və əhalinin kasıblaşma dövrü başlayıb"

## Qubad İbadoğlu: "Ölkədə iqtisadi və sosial durum pisləşib..."



Qubad İbadoğlu

**"Azərbaycanda dövlətin və əhalinin kasıblaşması dövrü başlayıb. Bunu rəsmi rəqəmlər də təsdiq edir". Bunu iqtisadçı alim Qubad İbadoğlu deyib. İqtisadçı Azərbaycanın hazırkı iqtisadi və sosial durumunu xarakterizə etmək üçün diqqəti 2 məhsula cəlb edib: "Hesab edirəm ki, bu məhsulların ixrac və idxalının son vəziyyəti bəzi həqiqətlərin üzərinə işıq salmağa kömək edə bilər. Hər iki məhsul Azərbaycanda çox populyardır.**

Onlardan birincisi bir-birindən heç vaxt ayırmadığımız neft-qaz, ikincisi isə minik avtomobilləridir. Neftin ixracatı ölkənin iqtisadi durumunu, minik avtomobillərinin idxalı isə xalqın güzəranını qiymətləndirmək üçün istifadə oluna bilər. Odur ki, sizi Dövlət Gömrük Komitəsinin 2015-ci ilin 7 ayı ərzində Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası haqqında məlumatlarla tanış olmağa dəvət edirəm".

Q.İbadoğlunun sözlərinə görə, açıqlanan göstəricilərdən məlum olur ki, bu ilin 7 ayında Azərbaycandan 6 milyard 485 milyon ABŞ dolları məbləğində təbii qaz, xam neft və neft məhsulları ixrac olunub: "Müqayisə üçün qeyd edək ki, ötən ilin eyni dövründə xaricə satılan təbii qaz, xam neft və neft məhsulları 12 milyard 298 milyon ABŞ dolları təşkil edirdi. Bu rəqəmləri müqayisə edəndə məlum olur ki, Azərbaycanın təbii qaz, xam neft və neft məhsulları ixacatı ötən ilə nisbətən 47,3 faiz və ya 5 milyard 813 milyon dollar azalıb. İdxal göstəricilərinə nəzər salanda görürük ki, bu ilin 7 ayında ölkəyə gətirilən minik avtomobilləri və digər motorlu nəqliyyat vasitələrinin sayı əvvəlki ilin eyni dövrünə nisbətən 2 dəfə azalaraq, 17 345 ədəd təşkil edib. Göründüyü kimi, hər birimizə yaxşı məlum olan hər iki məhsulun idxal və ixracatında ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfəyədək azalma qeydə alınıb. Bu tendensiya onu təsdiq edir ki, ölkədə iqtisadi və sosial durum pisləşib. Bir tərəfdə neft-qaz qiymətlərinin ucuzlaşmasına görə ölkənin itirdiklərini digər maliyyə qaynaqları ilə əvəz edə bilməyən dövlət kasıblaşır. Digər tərəfdə isə qazandığını daha çox yeyinti və əczaçılıq məhsullarına xərcləyən əhali müflisləşir".

❑ **NURLAN**

# Azərbaycan-Rusiya sərhədində böyük tıxac



**Ötən gündən başlayaraq Azərbaycan-Rusiya sərhədində yaranan böyük tıxac bu gün də qalmaqdadır (report). Belə ki, "Samur" gömrük buraxılış məntəqəsindən Rusiyaya keçmək istəyən avtomobillər Samur çayı üzərində yerləşən körpünün neytral hissəsində gözləməkdədir.**

Buna səbəb kimi sərhədin Rusiya hissəsindəki Yaraq-Qazmalar gömrük buraxılış məntəqəsinin kompüter şəbəkəsində texniki problemlərin yaranması göstərilir. Azərbaycanın Rusiya ilə sərhədində yerləşən digər gömrük buraxılış məntəqələrində isə heç bir çətinlik yoxdur.

# Cavid Hüseynovun forması - zorakılığın bayrağı kimi



**Araz BAYRAMOV**

**"Qəbələ" futbol klubunun "Azal"la oyunda Cavid Hüseynovun formasını qaldırması sadəcə biabırçılıqdır. Normal klub belə məsələyə görə utanmalı, jurnalistin və ya hər hansı bir insanın ölümündə bu və ya digər formada əli olan hər hansı bir şəxsə dəstək verməkdən çəkinməli idi. Əgər mənim dostum və ya yaxınım belə, bu cür bir hərəkət etsəydi, bir insanın, ailələrin faciəsinə səbəb olsaydı, heç bir halda onun etdiyini dəstəkləməz, onunla fəxr eləməz, onun adını ucaltmazdım. Bu hadisə göstərir ki, biz millət və cəmiyyət olaraq hansı səviyyəyə sahibik, nə qədər geridə qalmışıq.**

Belə baxanda, məsələ o qədər də təəccüblü deyil, belə şeyləri insanlarımızdan gözləmək olar. Bunu iki səbəbdən edirlər. Birincisi odur ki, bizdə hər kəsdə dava, "razborka", söhbət eşqi var, həyatı bunsuz təsəvvür eləyə bilmirlər. Qadınından tutmuş kişisinə qədər, bu ölkədə hər kəs aqressivdir. Qatarda yol gedirsən, baxırsan ki, oğlanlar bir-birinə əsəbi-əsəbi baxır. Elə bil fürsət gəzirlər ki, kimsə səhv bir şey eləsin, o saat dalaşsınlar. Hərəsi bir obraza girib. Biri, məsələn, hesab eləyir ki, o, Poladdır, digəri barondur, bir başqası Ezeldir, o birisi Ramiz dayıdır. Qərəz, hərəsi bir türk serialındakı obraza bürünüb gəzirlər. Bu səbəbdən bizdə heç kim anlamır ki, normal və mədəni insan başqasını hətta təhqirə görə döyməyə çağırmaz. Bu aktdan başqa nə eləyəcəyi hər kəsin öz işidir, fikir verməyə də bilər, məsələni hüquqi yolla tənzimləmək istəyə də bilər. Elə bu səbəbdən də bir də görürsən balaca bir məsələdən böyük dava çıxdı, biri digərini ya məqsədli şəkildə, ya da bilmədən öldürdü. Belə şeylər o qədər adidir, o qədər sıradandır ki, insanlarımız artıq bunu belə qəbul eləyib, belə yaşayırlar. Fikirləşirlər ki, normaldır, jurnalist bunun haqqında nəsə yazıb, bu da onu söhbətə çağırıb.

İkinci səbəb isə məsuliyyətin şişirdilməsi ilə bağlıdır. Bunu təkcə futbolçulara eləmirlər. Azca normal işləyən, vəzifəsini doğru-düzgün yerinə yetirən biri olanda hər kəs onu qaldırıb dağın başına qoyur. Məsələn, bəs filan general vuruşub, filan müəllim yaxşı adamdır, çünki dərs keçir, filankəs möhtəşəmdir, çünki qol vurub. Halbuki hərənin bir işi var, jurnalist göstərməli, hərbçi vuruşmalı, müəllim dərs deməli, futbolçu da qol vurmalıdır. Hər şeyin yolunda getməsinə öyrəşməmişik, normal gedən bir şeylər olanda ona qeyri-adi bir hadisə kimi baxırıq.

Azərbaycanlılar bəzən o qədər böyük məsələyə fikir vermirlər, adam laqeydlikdən əsəbiləşir; bəzən də elə xırda şeyi böyüdüb problem eləyirlər, adam məəttəl qalır. Kimsə yaxşı oğlan ola bilər, kimsə coşub-kükrəyə bilər, emosional davrana bilər, amma bir adamın ölümünə, hətta döyülməsinə bu və ya digər şəkildə səbəb olubsa, onda həbsi normal qarşılamaq lazımdır. Bu ifadəni Azərbaycanda demək nə qədər qəribə səslənsə də, hər kəs qanun qarşısında bərabərdir.

O gün fikirləşirdim ki, görəsən Rasim Əliyevin ölümündən sonra heç olmasa kimsə ya qorxaraq, ya bəzi şeyləri anlayaraq düşünəcək ki, jurnalistləri döymək, söhbətə çağırmaq, "filan şeyi filan yazmısan, bu nömrəm, kişisənsə gəl görüşək", - demək pisdir? Hətta bunun acı nəticələri də ola bilər.

Belə görünür ki, yox, hələ forma qaldırırlar. Şəxsən o forma mənə indi zorakılığın bayrağı kimi görünür. Elə bil kimsə deyir ki, sevinməyin, zorakılıq edənlər cəzalansa da zorakılığın bayrağı həmişə yüksəklərdə olacaq. Dəhşətdir.



# Həyasızların həyatı

Zamin HACI
zaminhaci@gmail.com

"Hanı sizin "yox"unuz? Buyurun, mənə deyin ki, insan insana bu qədər hissiyatsız yanaşmaz. Bəyəm siz bunu öyrənməmisiniz? İnsan siması altındakı hər şeyə həmrəylik? İnsan ləyaqəti? İnsan həyatına müqəddəs münasibət?"

**(Bernhard Şlink, "Qiraətçi")**

***

**Azərbaycan futbolçularının həyatda elə bir uğurları olmayıb. Haçansa it ilində "Neftçi"nin SSRİ çempionatında bürünc medal almağı ilə öyünərdik, amma yanılmıramsa ermənilərin "Ararat"ı iki dəfə çempion olmuşdu. O cümlədən, Vəli Qasımovun hansısa üçüncü sort İspaniya, ya da Portuqaliya klubunda oynamağına öyünəndə burnumuzun ucundan uzağı görsəydik adlı-sanlı Avropa klublarında 300 gürcü futbolçunun oynadığını da görərdik.**

Yeri gəlmişkən, əsl idmançılarda insani əxlaq da güclü olur. Örnək üçün, hazırda gürcülərin naziri işləyən, keçmiş "Milan"lı Kaxa Kaladze əxlaqında neçə idmançımızı göstərə bilərsiniz? Gürcülər onun doğma qardaşını girov götürüb öldürdülər, amma o, bir dəfə də xalqına "ağız atmadı", əksinə, humanitar fond yaradıb gürcü qaçqınlarına yardım elədi. Bizimkilər polisdə işə düzəlib adam döyməyi, idiot maşınlar alıb forslanmağı, kamera önündə yaltaqlıq, telekanalizasiya verilişlərində meymunluq eləməyi bilirlər.

Təzəlikcə xəbər yazılmışdı: Ağcabədinin icra başçısı rayon stadionunu kimlərəsə satıbdır. İndi orda biznes obyekti tikirlər. Qəzet buna görə icra başçısını tənqid eləmişdi, ancaq mənim mövqeyim tamam əksinədir. Orta məktəbi Misir müəllimin vaxtında oxumuş uşaqlar deyən kimi, "mövqeyim 360 dərəcə fərqlənir". Məncə icra başçısı o stadionu satmaqda düz eləyir. Nəyə gərəkdir axı? Biz azərbaycanlılara idman eləmək yaraşmır.

Qol vura bilmirlər, amma jurnalist vurdular. Ölənə qədər vurdular. Jurnalist Rasim Əliyevin qətli xəbərlərinin hamısını oxuyuram. Tragikomediya bilirsinizmi nədədir? Polis altı nəfərə yaxın şəxs saxlayıb, məlum olur bunların hamısı futbolçudur. Biri haçansa oynayıb, biri indi də oynayır və sairə. Eyni zamanda, Əliyevin xəsarətləri haqda həkim rəylərini oxuyanda dəhşətə gəlirsən, çünki insanda bir sağ yer qoymayıblar. Futbol topu kimi təpikləyiblər. Əliyevin daxili orqanları hamısı zədələnibmiş. Sanki topa vura bilmədikləri təpikləri insana vurmağa fürsət gəzirmişlər. "Nə olsun topla bacarmırıq, səninlə bacararıq" - cinayətkar məntiq, psixiatrik alt şüur yönləndirməsi budur.

Hərçənd, "öz işimizi bacarmasaq da, səni əzməyi bacararıq" həyat xətti, cəngəllik məntiqi bütün azərbaycanlılarda var. Az, ya çox miqdarda, amma hamımızda var. Gəlin yaxamızı qırağa çəkməyək, əks halda ölkəmiz bu cür miskin kökdə olmazdı. Elə bayaq Rasim Əliyevin həkimlərindən yazdım, siz onların, o cümlədən Azərbaycan həkimlərinin bu hadisə haqda rəylərini, internetdəki şərhlərini oxudunuzmu? Biabırçılıq idi. Həm həkim, həm insanlıq adına. Həkimlər elə leksikonla şərhlər yazırdılar ki, sanki bunlar Dərnəgül ət bazarında qəssab işləyirlər. (Ordakı yetərincə normal danışan qəssablardan müqayisəyə görə üzr istəyirəm). Əslində mən o həkimləri çoxdan qiyabi tanıyıram. Bir dəfə Seymur Baycan səhiyyəmiz haqda ümumiləşdirici stildə bir tənqid yazmışdı, məhz bu həkimlərimiz sosial şəbəkədə Seymur bəy haqda elə söyüşlər yazmışdılar ki, oxuyanda adamın əli üzündə qalırdı. Başa düşürdün ki, bunlara canını etibar eləmək baş prokurora qanun etibar eləmək kimi təhlükəli bir şeydir. Adamın canını "uf" deməden alarlar.

Eyni kökdə jurnalistikamızdır. Hər yüz dilənçi, yaltaq yazara nisbətdə 1 normal yazar tapsan sevinərsən. Və həmin yaltaqlar elə həyasızlıqla söz azadlığından, dövlətimizin mənafeyini qorumaqlarından-zaddan dəm vurarlar qalarsan yana-yana. Hökumətə bir söz yaza bilməzlər, amma sənin gözünə qələmi soxarlar.

Çünki bu ölkədə qiymət verilən əsas cəhət peşəkarlıq deyil, həyasızlıqdır. Yaşamaq istəyirsənsə, həyasız olmalısan. Hər günümüz, hər ilimiz bir həyasızlıq ölçüsüdür. Əgər Rasim Əliyev öldürülməsə dünən 31 yaşı olacaqdı. Mənim 42 yaşım var. Mən hazırda 11 il daha həyasızam.

# Enerji müharibələrində gizli kombinasiyalar dövrü

**Bu gün - avqustun 17-də Rusiya və İran xarici işlər nazirləri - Sergey Lavrov və Cavad Zərif Moskvada görüşəcək. Onlar ikitərəfli əlaqələri, Tehranın nüvə proqramı ətrafındakı son vəziyyəti və Suriya mövzusunu müzakirə edəcəklər. Musavat.com-un məlumatına görə, bu barədə Rusiya XİN-in rəsmisi bildirib.**




## Kremlin 3 paytaxtın arasını vurmaq planı - Bakı da hədəfdə...

### Türkiyə səfərini təxirə salan İran XİN başçısı Cavad Zərifin Moskvaya "zərif gedişi"nin pərdəarxası; bölgədə dost-müttəfiqlərin təzədən qruplaşması prosesi başlayıb; Rusiya oyunları öz saatı ilə idarə eləməyə çalışır...

Moskva danışıqları ABŞ Konqresi üzvlərinin İranla "altılıq" arasında Vyana anlaşmasını müzakirə eləməsi fonuna təsadüf edəcək. Amerika qanunvericiləri sentyabradək sənədi ya bəyənməli, ya da rədd etməlidirlər.

"Tərəflər Vyana anlaşması da nəzərə alınmaqla, əsas diqqəti ikitərəfli münasibətlərin bundan sonrakı inkişaf perspektivinə, həmçinin, qlobal və regional gündəmin aparıcı mövzularına, o sırada Suriya böhranına yönəldəcək" - Rusiya XİN-in rəsmi məlumatında belə deyilir.

Yada salaq ki, Zərifin Türkiyəyə ötən həftə - bir neçə gün öncə nəzərdə tutulmuş səfəri qəfildən təxirə düşmüşdü. Situasiyanın ən diqqətçəkici məqamlarından biri də, bizcə, elə budur - qonşu Türkiyəyə ziyarəti alınmayan İran baş diplomatının cəmi 3-4 gün sonra problemsiz-filansız Rusiya paytaxtına yollanması. Halbuki, Tehran Zərifin Ankara səfərinin baş tutmamasını "texniki problemlə" - səfər proqramının sıxlığı ilə əlaqələndirmişdi. Görəsən, bu "sıxlıq" nə əcəb Moskva səfərinə təsir göstərməyib?

***

Əlbəttə ki, siyasi təhlilçilər izahı başqa yerdə axtarırlar. Məsələ ondadır ki, Türkiyə və İran arasında ziddiyyətli məsələlərdən biri məhz Suriya, Bəşər Əsədin taleyi ilə ilgilidir. Ankara Əsədi hər hansı keçid hökumətinin tərkibində görmədiyi halda (bu həm də Qərbin mövqeyidir), İran - əksinə, Əsədsiz Suriyada dinc nizamlanmanı təsəvvür eləmir. Moskva da Tehranla hələ ki, eyni mövqedədir.

Zərifin böyük önəm verilən Türkiyə ziyarəti isə ən əvvəl Suriyaya dair İranın yeni planı ilə bağlı olub. Görünür, bu plan Ankarada elə də isti qarşılanmayıb, paralel surətdə Moskvanı narahat edib. Təsadüfi deyil ki, Lavrov-Zərif görüşünün əsas müzakirə mövzusu Suriya böhranından çıxış yolu olacaq.

Bu arada Kreml də problemin öz maraqları çərçivəsində həlli və ən önəmlisi, qlobal məsələlərdə böyük oyunçu imkanlarını itirmədiyini Qərbə göstərmək üçün bəzi addımlar atıb. O sırada Suriyanın mötədil müxalifətinin təmsilçiləri ilə Rusiya elçisi bu günlərdə bir neçə görüş keçirib. Şübhə yox ki, Moskva və Tehran bir daha bu məsələlərlə bağlı öz mövqelərini uzlaşdırmağa çalışacaq, necə deyərlər, saatların əqrəblərini tutuşduracaq.

Moskva səfəri ərəfəsində isə rəsmi Tehran öz mövqeyini yenidən, aydın şəkildə ortaya qoyub. İran Xarici İşlər nazirinin müavini Əmir Abdullahiyan deyib ki, Suriya məsələsində tək həll yolu siyasi cəhdlərdir" və əlavə edib ki, İran Suriyada təhlükəsiz bölgənin yaradılmasını bu ölkənin ərazi bütövlüyünün və suverenliyinin pozulması kimi qiymətləndirir. "Problemə beynəlxalq hüququ pozmadan həll yolu tapılmalıdır", - deyə Abdullahiyan bildirib.

Buradan bir daha qənaət hasil olur ki, Cavad Zərifin Türkiyə səfərinin təxirə salınmasının arxasında texniki deyil, geosiyasi səbəb dayanıb və ən çox da Suriya ilə ilgili olub. Söz düşmüşkən, Rusiya da İran kimi Suriyanın şimalında ABŞ və Türkiyənin təhlükəsiz zona yaratmaq ideyasının əleyhinədir.

***

Beləcə, 14 iyul Vyana anlaşmasından sonra Moskva və Tehranın yolları ayrılmağa üz tutmuş kimi görünsə də, əslində onlar arasında kifayət qədər strateji əhəmiyyətli, Qərbin və Türkiyənin əleyhinə olan ortaq məsələlər və təmas nöqtələri qalır. O da aydın görünür ki, İranın Türkiyə, bütövlükdə Qərblə münasibətlərindəki fikir ayrılıqlarından Rusiya maksimum faydalanmağa və Tehranla Qərb arasında ənənəvi gərgin ritorikanın saxlanmasına çalışır. Bu isə ona ilk növbədə Avropanın neft-qaz bazarına Tehranın girişini əngəlləmək üçün hava-su kimi gərəkdir.

Deməli, "kart"a Azərbaycanın da enerji maraqları, o cümlədən TANAP-ın taleyi qoyulub, çünki İran Kremlin marağında olmayan bu layihəyə qoşulmaq, hətta NABUCCO-nu dirilmək istəyini artıq bəyan edib. Eyni zamanda özünün nəhəng qaz ehtiyatlarının Avropaya nəqli üçün Azərbaycan və Türkiyənin mövcud və yeni infrastrukturlarından istifadə etmək niyyətini gizlətməyib.

Sözsüz ki, Tehran Kremlin yaxın və uzaq hədəflərini yaxşı anlayır. Onu da yaddan çıxarmaq olmaz ki, Qərb Rusiya neftindən imtina ssenarisi barədə də ciddi düşünməyə başlayıb və bu ssenari reallaşarsa, Rusiya iqtisadiyyatının "fatihəsi" oxunacaq. Rusiya isə dünya bazarında İranın həm də ciddi neft rəqibidir.

Odur ki, Cavad Zərifin Moskvaya "zərif gedişi"nin birmənalı olaraq Kremlin aktivinə yazılacağını indidən söyləmək çətindir. Hər halda, bölgədə böyük geosiyasi proseslər və oyunlar (kombinasiyalar) təzə-təzə başlayıb. Bu proseslərdən, təbii ki, hamı ən çox siyasi və iqtisadi mənfəət götürməyə çalışır - o cümlədən cənub qonşumuz.

Ancaq siyasət mümkün olanı reallaşdırmaq bacarığıdır. Bu mənada bölgəmizdə dost-müttəfiqlərin təzədən qruplaşdırılması da istisna deyil. Söhbət həm də İrandan və İrana münasibətdən gedir.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 179 (6207) 17 avqust 2015



# Rusiyanın növbəti iflas projesi, yoxsa?..

## "Avrasiya Hərəkatı" təhlükəsi sovuşdumu? Fərrux Məmmədov: "Putin bu yolla Azərbaycana mesaj verir ki..."

**Rusiyapərəst şəxslər tərəfindən ölkəmizdə "Avrasiya Hərəkatı" adlı qurumun yaradılması barədə önceki saylarımızda məlumat vermişdik. Qurumun yaradıcılarından olan keçmiş milli təhlükəsizlik naziri Nəriman İmranovun və Rusiya Ədliyyə Nazirliyinin keçmiş əməkdaşı İlqar Qasımovun bu quruma daha çox siyasi-hərbi keçmişi olan şəxsləri toplaması haqda da yazmışdıq.**

Yarandığı ilk günlərdən Rusiyanın ölkəmizi təzyiq altında saxlamaq üçün "Avrasiya Hərəkatı"nı təsis etdiyi, bu yolla növbəti projesini gerçəkləşdirdiyi məlum oldu. Çünki qurumun tərkibinə baxdıqda hər şey çılpaqlığı ilə üzə çıxdı. Zaman-zaman şimal qonşumuz bu tipli qurumlar yaradıb.

Maraqlıdır ki, bu siyasət əsasən, seçkilər ərəfəsində gerçəkləşir. Bundan əvvəl də, 2013-cü ildə prezident seçkiləri öncəsi Moskvada Rusiya Azərbaycanlıları Təşkilatları İttifaqı (RATİ) adlı təşkilat yaradılmışdı. Sonradan "Milyarderlər İttifaqı" adlanan bu təşkilatın əsas məqsədinin Azərbaycanda hakimiyyət dəyişikliyi etmək olduğu sübut olundu. Lakin göstərilən müəyyən çabalar Azərbaycanı Rusiyanın təsiri altına düşməkdən xilas etdi.

RATİ ilə uğur qazanmadığını görən Rusiya indi də "Avrasiya Hərəkatı" ilə planlarını gerçəkləşdirmək istəyir. Azərbaycan müxalifəti və mətbuatı birmənalı olaraq, bu hərəkatın əleyhinə çıxaraq, həyata keçirilən iyrənc planları ifşa etdilər.

"Milyarderlər İttifaqı" kimi, "Avrasiya Hərəkatı"nın da fiaskoya uğradığı göz önündədir. Bu onların fəaliyyətindən açıq şəkildə görünür. NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov "Yeni Müsavat"a açıqlamasında Rusiya yönümlü qurumların fəaliyyətinin daim uğursuzluqla nəticələndiyini bildirdi: "Rusiya yönümlü istənilən siyasi projelərin sonu hər zaman fiasko və uğursuzluqla nəticələnib. Buna misal olaraq, son dönəm "Milyarderlər İttifaqı" adlanan qurumu göstərə bilərik. Rusiya üçün şəxslər, təşkilatlar heç zaman önəmli olmayıb. Onlarda dövlət maraqları deyil, şəxsi maraqlar daha çox üstünlük təşkil edir. Bu baxımdan yaradılan hər hansı Rusiya yönümlü təşkilatın perspektivi heç zaman olmur. "Avrasiya Hərəkatı" da həmin təşkilatlardan biridir, siyasi arenada mövcud olmayan, yaşlandıqları üçün Kislovodska və ya Esentukiyə istirahət paketini pulsuz almaq istəyən şəxslərin xəyalən qurduqları, əslinə qalsa, realda mövcud olmayan bir hərəkatdır. Adından bəlli olduğu kimi, hərəkat böyük bir enerji və fiziki güc tələb edir. Bütün bu işləri görmək üçün onlar bu yaşda deyillər. Bu kimi xəyal projelərinin gerçəkləşməsi mümkün deyil. Yolumuz avrointeqrasiyadır, NATO-ya inteqrasiyadır və Amerika ilə müttəfiqliyimizdir. Azərbaycanda rus və ya Rusiya yönümlü istənilən projenin həyata keçməsinə izin verməyəcəyik. Dövlətimizin müstəqilliyi və inkişafı bizim üçün prioritet məsələdir. Bu baxımdan Qərblə müttəfiqliyə önəm vermək gərəkdir".


Fərrux Məmmədov

Müsahibimiz hərəkatın yalnız kağız üzərində fəaliyyət göstərəcəyini də qeyd etdi: "Hərəkatın maksimum təşkilatlanma, iş görmə gücü sadəcə, kağız üzərində açıqlama və bəyanatdan ibarət olacaq. Real iş görmək mümkün deyil. Buna səbəb Azərbaycan cəmiyyətinin artıq oyanmasıdır. Rusiyanın son iki yüz ildən artıqdır ki ölkəmizə və milli kimliyimizə qarşı apardığı siyasətdən hər kəs məlumatlıdır. Gələcək nəsil onlara qarşı haqlı olaraq aqressiya ilə böyüyür. Bu baxımdan istənilən hərəkat və ya proje iflasa məhkumdur".

F.Məmmədov hərəkatın təsisçilərindən də söz açdı: "Bu şəxslər barədə nəsə fikir söyləmək istəməzdim. Lakin onlara bir neçə məsləhət verməkdə fayda var. Onlara ilk növbədə Azərbaycan tarixini yaxşı oxumalarını tövsiyə edərdim. Şəxsi deyil, dövlət və millətin maraqlarını daha üstün tutmalarını bildirmək istərdim. Dövlətçiliyimiz üçün çalışsalar, daha yaxşı olardı. Bu gün üçün daha önəmli məsələdir. İllərcə ölkəmizi işğal edən, millətimizə, mədəniyyətimizə, tariximizə qarşı qətllər törətmiş bir dövlətə və onun maraqlarına xidmət etmək özü-özlüyündə utancdan başqa bir şey deyil".

Siyasi şərhçi ölkəmizdə seçkilər ərəfəsində belə bir qurumların yaradılmasının səbəblərinə də toxundu: "Ölkə daxilində seçki öncəsi yaradılan qurumlar, Dağlıq Qarabağ ərazisində keçirilən diversiya əməliyyatları eyni nöqtəyə xidmət edir. Mahiyyət isə budur ki, siyasi təzyiq etmək və bununla dövlətimizi nəzarətdə saxlamaq, "hər an işğal edə bilərəm" mesajı verməkdir. Bu əslində siyasi şantajdır. Çox təəssüflər olsun ki, bu cür qara və kirli oyunlarda məhz azərbaycanlılar iştirak edir. Lakin onlar unudurlar ki, müvəqqəti olaraq, onlardan istifadə olunacaq və atılacaqlar. Bunu gərək nəzərə alsınlar".

Müsahibimiz bu yolla Putinin Azərbaycan prezidentinə mesaj verdiyini söylədi: "Bu və ya bu cür təşkilatların yaranması müvəqqəti də olsa, ona işarədir ki, Rusiyanın "beşinci kolon"u real olaraq mövcuddur. Bu, sadəcə, görünən tərəfdir. Bunlar vaxtı ilə xidmət ediblər və bu gün də etməkdə bu davam edirlər. Əslində Putinin mesajı İlham Əliyevə açıq şəkildə özünü göstərir. "Mənim mövcudluğum hər bir sahədə var və mən sənə sabah üçün böyük bir təhlükəyəm". Bu təşkilatın təhlükəsinə gəlincə isə, hələ ki, konkret addımları yoxdur. Lakin unutmayaq ki, sel gəlməmişdən öncə çör-çöp gətirir. Bu, ilkin mesajdır. Əsas güc və təhlükə isə, daxilimizdə mövcuddur - gizli şəkildə. Burada Milli Təhlükəsizlik Nazirliyinə çox iş düşür. Düşünürəm, bu qurum lazımi addımları atır və təhlükəsizlik sahəsində də atmaqda davam edəcək".

❑ Cavanşir ABBASLI

# Obamanı prezident edən şəxs öldü


Culian Bond

**Qara dərililərin İnkişafı Milli Dərnəyinin keçmiş rəhbəri, tanınmış insan haqları müdafiəçisi Culian Bond 75 yaşında Florida ştatının Fort-Uolton Biç şəhərində uzun sürən xəstəlikdən sonra vəfat edib.**

Axar.az xəbər verir ki, bu barədə "New York Times" qəzeti məlumat yayıb. Culian Bond ABŞ-da təcavüzkarlığa qarşı Tələbə Koordinasiya Komitəsinin yaradıcılarından olub. Hüquq müdafiəçisi həmçinin, yazıçı, şair, televiziya şərhçisi və ağ irqin hökmranlığının ən qatı əleyhdarı idi. Bond bundan başqa ABŞ Prezidenti Barak Obamanın prezident seçilməsində ən böyük rolu olan şəxslərdən biri olub.

# Kastro, Vadim və Dominqo...



Hüseynbala SƏLİMOV

**İlahi, bu insanlarda nə qədər temperament vardı!.. İki kubalı bir yerə düşəndə, biri-biriylə rastlaşanda ya gərək qulaqlarını tutaydın, ya da qaçıb canını qurtaraydın- o qədər emosional, o qədər temperamentlə danışırdılar ki... Bəlkə kubalılardan yazmaq bir qədər artıqdır, çünki sovetlər vaxtı Azərbaycanda da bu adamlara - tələbələrə çox rast gəlmək olurdu...**

Amma mən çox şey yazmayacam. Əvvəl onu demək istəyirəm ki, qızları çox, olduqca gözəl olurdu... Bu milləti xarakterizə etmək üçün bir söz soruşulsaydı düşünmədən temperament deyərdim...

Məzəli hadisələr də az olmurdu. Bir kubalı oğlan vardı. Adı Dominqo idi. Bir dəfə bunun otaq yoldaşı rus Vadim ilə mübahisəsi düşmüşdü. Birdən Dominqo yoxa çıxdı. Bir azdan əlində iki bıçaqla qayıtdı. Birini Vadimə verib qayıtdı ki, bəs biz vuruşmalıyıq...

Uşaqlar durub onu sakitləşdirməyə çalışdılar. Axır bir təhər sakitləşdirdilər. Vadim də idmançı idi. Sambo ilə məşğul olurdu. Amma Dominqonun hərəkətindən özünü yaman itirmişdi - ümumiyyətlə, bıçaq, nə bilim, xəncər və ya başqa bir soyuq silah ruslar üçün deyil. Dalaşmaq deyirsən, lap nə qədər istəyirsən, dalaşsınlar, amma qan görəndə özlərini itirirdilər...

Həm də adi məişət mübahisəsinə görə bıçaq savaşına çıxmaq da olmazdı axı...

Hər halda, Vadim çox yaxşı oğlan idi. Kinli deyildi. Bəlkə də başqa birisi olsaydı Dominqonun bu hoqqabazlığına başqa cür reaksiya verərdi. Amma o bir az özünü itirsə də, gülməklə, barışıqla vəziyyətdən çıxa bildi...

Bunları niyə xatırladım? Həftənin sonunda Kubada ABŞ səfirliyinin açılışını xəbərlədilər. Yenidən ABŞ bayrağı Kubada dalğalanmağa başladı. Bəli, dünya dəyişir, ədavət, qısqanclıq və nifrət aradan qalxır...

Amma böyük bir epoxa da başa çatır. Bu, Kuba inqilabının epoxası idi. O vaxt sovetlərin kumirə çevirdiyi qəhrəmanlardan biri də Fidel idi, bəli, Fidel Kastro! Onun SSRİ-yə səfərləri ni indiyədək xatırlayıraq. Hərbi, daha doğrusu, hərbi-səhra mundirində saqqallı bir adam... O da bütün kubalılar kimi olduqca hərarətlə danışırdı...

Düzdür, bu adam az qala dünyanı nüvə müharibəsinə gətirib çıxarmışdı, amma o vaxt heç kim bunun fərqində deyildi - Fidel qəhrəman idi. Ona görə qəhrəman idi ki, biz, yəni sovetlər onun sayəsində ABŞ-ın qulağının dibində otururduq...

O vaxt Kubaya Azadlıq Adası deyilirdi. Fidel rejiminin sovetlərə oxşarı da vardı, ciddi fərqləri də... Ən böyük fərq onda idi ki, Kubada bir qədər məişət sərbəstliyi vardı, lap açığını desək, seks azadlığı vardı...

SSRİ-də isə bütün bunlar qara pərdə altında idi, az qala deyirdilər ki, bizdə heç bir seks-filan yoxdur və qadınlarla kişilər hamısı qardaş-bacı kimi yaşayırlar. Doğrudan da, əcaib və gülməli məsələ idi. Xaricilər də yazırdı ki, əgər sizdə seks yoxdursa, onda bəs uşaqlar haradan peyda olur, onda bəs ailə nə üçündür?...

Amma sovet rejimi öz dediyinin üstündə dururdu. Halbuki hətta L.Brejnev də gözəl qızlara və qadınlara biganə deyildi... Burada da yadıma bir detal düşür.

Bir dəfə valideynləri Hindistanda çalışan bir tələbə bu ölkədə dərc olunan bir jurnal gətirmişdi. Orada L.Brejnevin fotoları dərc olunmuşdu. Yox, elə bir şey yox idi, sadəcə, L.Brejnevin gənc qızları və qadınları necə süzdüyü əks olunmuşdu. Amma dərhal xəbərlədilər və həmin oğlanı təhsil şöbəsində xüsusi "söhbət"ə çağırdılar və bir də belə etməməsini tapşırdılar...

Qərəz, o vaxt belə şeylər vardı... Amma bir daha deyirəm ki, Kastro qəhrəman idi. Sonradan SSRİ dağıldı, Kubaya maraq azaldı, hətta itdi və kubalı tələbələri görmək bir o qədər də asan olmadı, çünki onların sayı kəskin şəkildə azalmışdı. Amma Kuba hələ də özünü saxlayırdı. Kommunist dünyası çöksə də, Fidel inamla kubalıları "işıqlı gələcəy"ə aparırdı. Amma tez-tez Kubadan Amerikaya qaçmaq istəyən mühacir qayıqlarını göstərirdilər. Bu, isə o demək idi ki, əvvəlki ideallar sarsılıb...

İndi o dövrləri xatırlaya bilmirəm. Bu illər ərzində Kuba ilə bağlı yalnız bir əlamətdar hadisə yadımda qalıb - Roma papası Kubaya səfər etmişdi...

Bəli, bu, o demək idi ki, Kuba da tədricən kommunist ideallarından çəkilir və sanki reallığa doğru hərəkət edir...

Papanın Kubaya səfəri ona dəlalət edirdi ki, daha Azadlıq Adası da kommunizmin ən əsas doktrinlərindən birindən - ateizmdən əl götürür... İndi Kuba yeganə xristian ölkələrindəndir ki, orada müqəddəs Lazar (İsa peyğəmbərin dirildiyi iddia olunan adam) günü qeyd olunur...

Bəli, Kuba inqilabı da indi yalnız bir aspektdən dəyərləndirilir - o, Kubanı azadlığa, milli istiqlaliyyətə qovuşdurmuşdu. Nə demək olar? Məgər azdırmı?

YENİ MÜSAVAT
N 179 (6207) 17 avqust 2015

**1830-35-ci illərdə tikilən, günümüzdə şəhər administrasiyasının binası kimi istifadə olunan möhtəşəm Ratuşanın üst qatından Lvov ovuc içi kimi görünür. Hərəsi bir memarlıq incisi olan binalar o qədər uyumlu, çatıların rəngləri o qədər ahəngliдир ki, insan ilk baxışdan görüntünün canlı olmasına şübhə edir - sanki rəssam tablosudur.**



# Savaşan Ukraynanın dinc şəhəri - Lvov

## Avromaydanın “beyin mərkəzi”ndə - “Aslanlar şəhəri”ndə nələr gördük...





Tarixçilərin dediyinə görə, insanlar bu ərazilərdə bizim eranın V əsrindən məskunlaşmağa başlayıblar. Şəhər İpək Yolunun üzərində yerləşdiyi üçün çox sürətlə inkişaf edib. Bu ərazinin Lvov - daha dəqiqi, Lviv adlandırılmasının tarixi Kiyev-Rus dövlətinin qurucusu knyaz Danilo Qalitskinin adı ilə bağlıdır. XIII əsrdə Qızıl Ordanın tabeliyindən çıxaraq Rus Çarlığını elan edən Knyaz Qalitskiy burada varisi Levin şərəfinə qala tikdirib. O gündən bu günə şəhər Lviv - türkcəmizdə desək, “Aslan” adlanır. Şəhərin simvolu da aslandır. Mərkəzi meydanlarda, hər biri öz dövrünün memarlıq özəlliklərini daşıyan binaların üzərində yenilməzlik rəmzi olan şir heykəlləri görünür.

Avropa memarlıq məktəbinin neçə-neçə incisi bu şəhərdədir. Buralar Avropa zadəganlarının istirahət kəndi olub. Aristokratiya bütün yayı Lvovun yamyaşıl bağlarında keçirib, çöllərində ov ovlayıb, quş-quşlayıblar. Zadəgan axını zaman keçdikcə şəhərin mədəni həyatını canlandırmağa başlayıb. XVIII əsrdə tikilən Lvov Opera Teatrının binası, saysız-hesabsız kilsələr, zadəgan qəsrləri bu gün də əzəmətləri ilə şəhərə xüsusi yaraşıq verir. Şəhərdə çox imperiyaların gözü olub, çağın güclüsü kim olubsa, şəhər onun nəzarətinə keçib. Ancaq Lvovun şəhər kimi inkişafı əsasən XVIII-XIX əsrlərdə Avstriya-Macarıstan imperiyasının tərkibində olduğu zaman baş verib. Avstriya memarlıq məktəbinin Lvovdakı 400-dən artıq nümunəsi dünya mirası elan edilib. Onları YUNESKO qoruyur.

Bura Kiyevdən sonra Ukraynanın ən “yaşıl şəhər”i sayılır. Hara baxsan, bağ-bağatdır. Uca-uca binalara boy verən ağacları budamaq adı ilə “keçəlləşdirmək”, təbii bitki örtüyünü məhv edib yapon əzgili, palma, sapsarı kol-kos əkmək hələ lvovluların ağlına gəlməyib. İnşallah, bundan sonra da gəlməz. Yaşıllığın bolluğundan hava oksigenlə doludu. Ağ ciyərlər sözün əsl mənasında bayram edir.

Lvov əhalisi inanclıdır. Şəhərin baş meydanı “Azadlıq”da ucaldılan Məryəm Ana heykəlinin altında “Sən Ukraynada savaşı öz duanla durdura bilərsən” yazılan lövhə qoyulub. Abidənin önündən keçən hər kəs - şortikli gənclikdən tutmuş, yaşlı insanlara qədər hamı 2 saniyə ayaq saxlayır, xaç çevirib baş əyir, dua edirdi. Yadıma salmaq istədim, nə zamansa məscidin yanından keçəndə Azərbaycan üçün, Qarabağın azad edilməsi üçün dua etmişəmmi, ya dua edən birisini görmüşəmmi? Yadıma gəlmədi. Ukraynalılardan fərqli olaraq bizim üçün inanc və vətən fərqli anlayışlardır.

Ukraynada deyirlər ki, Lvov Ukraynadan çox Qərbə aiddir. Təbii, söhbət düşüncə tərzindən gedir. Rusların üstünlükdə olduğu şərq vilayətləri ilə qərb arasında fərq gerçəkdən də böyükdür. Ölkədəki demokratik dəyişikliklərin bünövrəsi illərdir məhz qərb bölgəsində qoyulur. Avromaydanın beyin mərkəzi də Lvovda yerləşir - Ukraynanı Rusiyadan tam bağımsız, bərabərhüquqlu dövlət kimi görmək istəyən millətçi - banderaçıların çoxu qərblilərdir. Söhbət Ukraynanın müstəqillik simvolu Stepan Banderanın tərəfdarlarından gedir. Bandera 1940-cı ildə - SSRİ Ukraynanı işğal edəndən sonra Ukrayna Millətçilər Konqresinə rəhbərlik edib. 1941-ci ildə Lvov faşist Almaniyasının nəzarətinə keçib. İşğaldan bir neçə gün sonra Stepan Bandera Ukraynanın müstəqilliyini elan edib, ancaq onun bu addımı reyxə xoş gəlməyib - Banderanı bir neçə silahdaşı ilə bərabər həbs ediblər. Onun həbsdə olduğu illərdə tərəfdarları Ukrayna İnqilab Ordusunu yaradıb, həm almanlara, həm də Sovetlər Birliyinə qarşı vuruşublar. Stepan Bandera həbsdən çıxa bilsə də, vətəninə qayıtması mümkün olmayıb. 1959-cu ildə KQB-nin göndərdiyi killer onu Münhendə evinin qarşısında vurub. Məzarı da ordadı. 1940-cı ildən bu günə Ukraynanın müstəqilliyinin tərəfdarları Banderanı özlərinə lider sayır və hərəkatlarını onun ismi ilə adlandırırlar.

Avromaydanın ideoloqları sırasında benderlər az olmasa da, bu gün onlar Pyotr Poroşenko iqtidarının bütün addımlarından razı deyillər - xüsusən də Ukraynada başqa millətlərdən olan şəxslərin yüksək postlara təyin edilməsi ilə. Əslində Ukraynada, demək olar, bütün dönəmlərdə hakimiyyətdə yəhudilər üstünlükdə olublar. Ancaq banderaçılar hesab edir ki, hakimiyyətdə təmizqanlı ukraynalılar təmsil olunmalı və avrointeqrasiya Qərbin marionetkasına çevrilmək anlamına gəlməməlidir.

Bu kəsim təkcə ideoloji işlərlə məşğul deyil. Antiterror əməliyyatları başlanan gündən bu günədək minlərlə gənc banderaçı cəbhəyə gedib. Luqansk və Donetskdə onların neçə batalyonu ruslara qarşı döyüşür. Şəhidlər və qazilərin yeri baş üstündədir.

Ukraynada ən populyar lvovlu, sözsüz ki, mer Andrey Sadovoydur. Sodovoy 9 ildir Lvovu idarə edir. Onun haqqında maraqlı bir deyim var - Ukrayna Sodovoyu sevir, bir tək Lvovdan başqa. Bununla belə, hər seçkidə sakinlər şəhəri ona etibar edir. Bu ölkədə seçkinin saxta, antidemokratik keçirilməsi heç kəsin ağlına gəlməsin.

Yeni hökumətin qurulması zamanı Pyotr Poroşenko və baş nazir Arseniy Yatsenyuk Sadovoya baş nazirin müavini postunu təklif etsələr də, mer razılaşmayıb. Qəzetçilərə bu haqda açıqlama verən Sadovoy deyib ki, şəhərdən getsə, 1 il sonra Lvovu tanımaq mümkün olmayacaq. Çünki Lvov Şəhər Şurasında köhnə iqtidardan qalma kriminal deputatlar var, onlar hər fürsətdə yeni hakimiyyətin əleyhinə işləyəcəklər.

Sadovoyun adı rəsmi varlılar siyahısındadır. O, sahibi olduğu “Qalitskie investisii” şirkəti vasitəsilə “Yuqzapadelektrosetstroy” şirkətinin səhmlərinin 20 faizinə nəzarət edir. Bundan başqa, “Lüks” teleradio kompaniyası da merindir. Sadovoyun qəzetçilərlə münasibətləri çox yaxşıdır. Onun vəzifəsini illərdir qoruya bilməsini ekspertlər şəffaf işləməsinə bağlayırlar. Sadovoy jurnalist sorğularına, ümumiyyətlə vətəndaşların qayğılarına diqqətlə yanaşır. Ötən il yeni ev alan mer şəhərin qəzetçi cameəsini qonaq çağırıbmış. Özü də təkcə redaktorları yox, gəlmək istəyən bütün media mənsublarını. Qonaqlıda mer evi hansı gəlirlə hansı şirkətdən hansı məbləğdə alması ilə bağlı bütün sualları sənədli-sübutlu cavablayıbmış.

Merin düşmənləri də çoxdur. Ötən il onun evini iki dəfə atəşə tutublar. Birinci dəfə qumbaraatanla, ikinci dəfə avtomatla “işləyiblər”. Hücumlar zamanı nə mer, nə xanımı, nə də 5 oğlu evdə olmayıb, xidmətçilər də hücumdan yayına biliblər. Prezident Poroşenko faktlarla bağlı qaldırılan cinayət işlərinin xüsusi nəzarətdə olduğunu desə də, hələlik cinayəti nə törədənlər, nə də sifarişçilər aşkar edilməyib. Mer ehtimal edir ki, onu ölkə içərisinə sızan Rusiya xüsusi xidmət orqanlarının əməkdaşları aradan götürmək istəyir.

Sadovoyun ən böyük işlərindən biri bizdə dəbdə olan ifadə ilə desək, daxili imkanlar hesabına şəhərdə Rusiyanın işğal etdiyi ərazilərdən köçkün düşən yüzlərlə ailəni yerləşdirməsidir. Lvova sığınanlar əsasən Krım tatarlarıdır. Tarixin qəribə işləri olur - XIII əsrdə Lvov qalasından monqol-tatarların başına alov çəlləkləri yağdırırdılar, 8 əsrdən sonra şəhərdə monqol-tatarların nəvələrinə hər kəs qapısını könüllü açır.

Ukrayna Krım uğrunda savaşmasa da, ordan gələnlərə sahib çıxıb. Lvov rəhbərliyi köçkünlərin normal yerləşməsi üçün bütün imkanları səfərbər edib. Əhali də kənardan baxmır - kimi müvəqqəti yaşamaq üçün evini verib, kimi əşya göndərib, kimi maddi dəstək olub və olur...

Ukraynada “qaçqın” sözünü işlətmək bütün millətə təhqir kimi qəbul edilir. Nə badə, Ukraynaya gedəndə qaçqın söhbəti eləyəsiniz. Çox həssasdırlar. Söhbət bu mövzunun üzərinə gəlsə, “müvəqqəti köçkündən” başqa ifadə işlətməyin. Rusiyanın acığını sizdən çıxarlar...

İndi Lvov rəhbərliyinin əsas qayğısı ciddi investorlarla uzunmüddətli projelər həyata keçirməkdir. Sovetlər Birliyi dönəmində Lvov böyük maşınqayırma mərkəzlərindən sayılırdı. SSRİ aviasiya sənayesinin bir hissəsi də burada yerləşirdi. Şəhərdə traktordan yük maşınına, qatardan təyyarəyə qədər bir çox texnikanı istehsal edən nəhəng sənaye müəssisələri qurulmuşdu. Sovetlər Birliyinin dağılmasından sonra həmin müəssisələrin də çöküşü başladı. İndi çoxunun yerində yaşayış kompleksləri, parklar salınıb. Bizdəki kimi...

Ölkənin də, şəhərin də rəhbərliyi tamamilə sıradan çıxmamış zavodlardan, eləcə də təcrübəli kadr potensialından istifadə etmək planları üzərində işləyir. Bunun üçün tələb olunan nəhəng maliyyə indi Ukraynada yoxdur. Güman Ukraynanın əlverişli investisiya mühitinə maraq göstərən əcnəbi investorlaradır. Dövlət və hökumət onlara hər cür şərait yaradılacağına təminat verir.

Sənaye müəssisələrinin sıradan çıxması əhalinin məşğulluq səviyyəsini aşağı salıb - işçi qüvvəsi çox, işləməyə yer yox. Gənclik Ukraynanın və Avropanın tətil kəndlərində mövsümü işlərdə çalışır. Orta və yaşlı nəsil isə hökumətin və xaricdə işləyən övladlarının əlinə baxır. Lvovlular deyir ki, indi bu şəhərdə hamı nəsə satır. Çünki bunsuz mümkün deyil.

Satdıqlarını 50 km-də yerləşən Polşadan alırlar. Polşanın bu istiqamətdə 4 sərhəd qapısı var. Polşa sərhədə yaxın ərazilərdə yaşayanlardan Şengen vizası tələb etmir. 2016-cı ildə bütün Ukrayna vətəndaşları üçün Avropa Birliyinə vizasız rejim tətbiq olunacağı gözlənilir. Sərhəd qapılarının o tayında iri topdansatış bazarlarıdır. Burada ev əşyasından kolbasaya, diş çöpündən geyimə qədər bir çox məhsulu aşağı qiymətə tapmaq mümkündür. Avropanın qida sektoru üçün sərhəd bazarları faktiki olaraq ölü məhsulların can bulduğu yerdir. Avropa əhalisi istifadə müddətinin bitməsinə az qalan ərzaqları almırlar. Şirkətlər müddəti bitincə həmin məhsulları satışdan çıxarıb yandırmalıdırlar. Polşa-Ukrayna sərhədində isə belə ərzaqlara tələbat böyükdür. Şirkətlər istifadə müddətinin bitməsinə 1-2 ay qalan məhsulları bazardan çıxarır və sərhəddə 3-5 qəpik aşağı qiymətlə realizə edirlər.

Elə təsəvvür yaranmasın ki, Ukraynada qıtlıqdır. Dünyanın ən verimli qara torpaq ehtiyatının 2 /3-si bu ölkədədir. Ərzaqlar bol və Azərbaycanla müqayisədə inanılmaz ucuzdur. Dana əti, kərə yağı 3,5 manat, qoyun əti 4 manat, quş əti 1,5 manat, şəkər 20 qəpik, yumurta 3 qəpik. Meyvə-tərəvəz də bol, ucuz. Üstəlik küçə ticarəti sərbəst. Həyətindən bir vedrə moruq, pomidor, gilas yığıb pula çevirmək istəyən kəs polis təpiyi ilə yox, şəhər rəhbərliyinin qayğısı ilə üzləşir. Bu işin ən yaxşı nümunələrindən birini Odessada qubernator Mixail Saakaşvili yaradıb. Bu haqda növbəti reportajda.

**❑ Aygün MURADXANLI**
**Bakı-Kiyev-Lvov-Odessa-Bakı**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 179 (6207) 17 avqust 2015

**Dağlıq Qarabağ da daxil, Azərbaycan ərazilərinin işğalına görə haqq elədiyi izolyasiya ilə üzləşən Ermənistanda iqtisadi-sosial durum aydan-aya ağırlaşır. Bunu hakimiyyət açıq etiraf eləməsə də, yerli iqtisadçılar və politoloqlar, erməni publisistləri açıq şəkildə bəyan edir, bu minvalla nəinki ölkə iqtisadiyyatının, bütövlükdə ölkənin gələcəyinin olmadığı haqda həyəcanlı xəbərdarlıqlar edirlər.**

**Yaranmış vəziyyətdə xilas yolunu bütünlüklə Rusiya tərkibinə girməkdə görənlər də var. Ancaq məsələ ondadır ki, beynəlxalq sanksiyalar altında olan Rusiyanın özünün durumu hazırda acınacaqlıdır. Çünki o da Ermənistan kimi öz qonşusunun - Ukraynanın bir parçasını işğal etməsinin ağır bədəlini ödəyir.**




# Ermənistan iqtisadiyyatı kliniki ölüm ayağındadır

## Yeni problemlərin köhnə səbəbləri; təkcə son 5 ildə ölkəni 200 min nəfər tərk edib; erməni analitikləri və iqtisadçıları həyəcan təbili çalır, çıxış yolu isə çoxdan bəlli - işğala son qoyulsun!

Kəsəsi, işğala son vermədən hər iki təcavüzkar üçün optimal çıxış yolu və qurtuluş variantı görünmür. Erməni analitik Susanna Petrosyanın bu xüsusda "Vestnik Kavkaza" portalında dərc olunmuş məqaləsi Qarabağ məsələsinə görə illərdir blokada şəraitində yaşayan Ermənistandakı daxili iqtisadi-sosial durum haqda təsəvvürləri dolğunlaşdırır.

Petrosyan yazır: "Ermənistanın Milli Statistika Xidməti bu ilin birinci yarım illiyinin acınacaqlı iqtisadi göstəricilərini dərc edib. Böhranlı 2009-cu ildən üzü bəri ilk dəfə xarici ticarət dövriyyəsinin həcmi 20.6% azalıb. İlk dəfə olaraq son 6 ildə daxili ticarət sferasında 5,1% azalma baş verib. Cari ilin 6 ayında hökumətin vergi yığımı ötən ilin analoji dövrü ilı müqayisədə 13,5% azalıb. Xarici məhsulların idxalı, demək olar 25% düşüb. Həmçinin, yerli istehsalda eniş qeydə alınıb. Ən böyük geriləmə isə çörək və un məmulatları, bitki yağları istehsalında baş verib - 1,8%. İdxalın azalması fonunda yerli istehsalın da azalması ilk baxışda bazar məntiqinə zidd görünür. Ancaq konkret halda bunun dəqiq izahı var: səbəbin kökündə həm əhalinin sayının, həm də insanların istehlak qabiliyyətinin azalması dayanır".

Analitik daha sonra yazır: "Hakimiyyətin iqtisadi yüksəliş haqda vədlərinə rəğmən, rəsmi göstəricilərə əsasən, orta aylıq əməkhaqqı son aylar 6% artsa da, qiymətlər də 4,2% artıb, digər mühüm göstəricilər ondan xəbər verir ki, iqtisadiyyatda ciddi problemlər yaşanır.

Hakimiyyət iqtisadi fəallıqdan, ÜDM-in artımından danışır, di gəl, ticarət göstəriciləri aşağı düşür. Belə şey ola bilməz axı, insanlar az alver eləsin, amma iqtisadiyyatda artım olsun.

"Bu halda heç olmasa, vətəndaşların əmanətləri artmalı idi. Axı əgər insanların əlinə vəsait düşürsə, onu ya xərcləməli, ya da saxlamalıdırlar. Amma bizdə həm əmanətlər, həm də ticarətin həcmi azalıb. Ayrı sözlə, biz konkret olaraq əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsinin şahidiyik" - hesab edir iqtisadçı BabkenTunyan".

Təhlilçi ardınca digər, yeni problemlərə də toxunur: "Ermənistan iqtisadiyyatının qismən yeni bir problemi transfertlərin həcminin azalmasıdır. Birinci yarım ildə transfertlər 682,6 milyon dollar təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 28,4% azdır. Pul köçürmələrinin azalması səviyyəsi də 2009-cu il böhranından sonra ən yüksək olub.

İqtisadçı Vilen Xaçatryanın sözlərinə görə, Rusiya iqtisadiyyatında yaşanan istənilən təlatüm, o cümlədən neftin qiymətinin düşməsi ölkəyə transfert edən erməni miqrantların gəlirlərinin də azalmasına gətirir. Bəzi ekspertlərin proqnozlarına görə, transfertlərin azalması 40%-i keçə bilər ki, bu da Ermənistan iqtisadiyyatlına ciddi zərbədir, nədən ki, ÜDM cəmi 10 milyard dollardır və onun da 2 milyardını özəl transfertlər təşkil edir.

Situasiyanın mühüm göstəricilərindən biri kimi daşınmaz əmlak bazarındakı mənzərəni göstərmək olar. Belə ki, birinci yarım ildə orada fəallığın azalması qeydə alınıb - alqı-satqı halları azalıb, mənzilin qiyməti 15% düşüb (bir kvadrat metr üçün).

Bundan əlavə, ölkədə kiçik və orta biznesin inkişafı ilə bağlı köhnə problemlər dərinləşməkdədir. Rusiya iqtisadiyyatındakı böhran, dolların kursunun qalxması, ümumi alıcılıq qabiliyyətinin aşağı düşməsi kiçik biznesə adi əksər obyektlərin bağlanmasına gətirib".

Müəllif məqaləsinin sonuncu hissəsində yazır: "Ermənistan İşəgötürənlər İttifaqının keçirdiyi təhqiqatlara əsasən, orta və kisik biznes nümayəndələri bu sahənin inkişafında əsas maneələr qismində qanunların tez-tez dəyişməsini, vergi yükünün ağırlığını, bürokratçılığı, korrupsiyanı, ədalətsiz rəqabəti göstəriblər. Rəyi soruşulanların 69%-i bu sahənin inkişafına əsas maneə kimi yüksək faizli kreditlər də daxil, maliyyə vəsaitlərinin əlçatmazlığını qeyd edib.

"Banklarda kreditlərin alınmasında çətinliklərin nəticəsində biznes kredit götürə bilmir. Faktiki surətdə kiçik və orta biznes müəssisələrinin, demək olar, 70%-i üçün maliyyə əlçatmazdır. Əgər bu problem həllini tapmasa, hökumətin islahatları heç bir nəticə verməyəcək" - deyir qurumun sədri Qaqik Markaryan.




Maraqlıdır ki, bu fonda hökumət üzvləri iddia eləməkdə davam edirlər ki, ölkədə iqtisadi artım var. Bu yaxınlarda Gümrüdə jurnalistlərlə görüşündə baş nazir Ovik Abramyan bir neçə qəribə açıqlama verdi: dedi ki, birinci yarım ildə ÜDM-nin artımı 4,5% olub ki, bu da büdcədə nəzərdən tutulandan artıqdır (1 %). Onun sözlərinə görə, ikinci yarım ildə iqtisadi artımı bir neçə faizə çatdırmaq mümkün olacaq. "Aykakan jamanak"ın iqtisadçı icmalçısı bu xüsusda istehzalı şəkildə qeyd edib: "Əgər iqtisadi işlərimiz bu minvalla getsə, ola bilsin ili ikirəqəmli iqtisadi artımla basa vuraq. Burada məsələ onda deyil ki, hökumət faizlərdə bir azca yanlışlığa yol verir - ya o tərəfə, ya bu tərəfə. Hamımız başa düşürük ki, ölkədə iqtisadi artım nəinki 4,5% deyil, hətta onun sıfırdan yuxarı olması olduqca şübhəlidir. Sadəcə, sual ondan ibarətdir ki, hökuməti daim belə yuxarı rəqəmlər söyləməyə nə vadar edir?"

Əgər ölkədə hər şey belə yaxşıdırsa - iqtisadi artım təmin edilibsə, əməkhaqqı artımı qiymət artımını üstələyirsə, daim iqtisadi fəallıq qeydə alınırsa, orta və kiçik biznesin problemi hökumətin diqqət mərkəzindədirsə, o zaman niyə ölkədə işsizlik artır, insanlar Ermənistandan getməkdə davam edirlər?! Yeri gəlmişkən, son 5 ildə ölkəni 200 mindən çox insan tərk edib".

*****

Bu faktlar bir daha sübut edir ki, Ermənistan iqtisadiyyatı artıq "kliniki ölüm" mərhələsinə girib və Azərbaycanla, Türkiyə ilə əlaqələr təcili qaydaya salınmayınca, nəinki iqtisadi vəziyyət düzəlməyəcək, üstəlik, Ermənistanın bir dövlət olaraq varlığı böyük sual altına düşəcək. Vəziyyətdən çıxış yolu isə çoxdan bəllidir - işğal siyasətinə təcili son qoyulması, Azərbaycanın və Türkiyənin ərazi bütövlüyünün qeyd-şərtsiz tanınması.

# Əsgərlərimiz and içdi



**Dünən Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Silahlı Qüvvələrin birlikləri, Əlahiddə Ümumqoşun Ordusu, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrinin hərbi hissələrinin ərazilərində təşkil edilmiş mərasimlərdə rituala uyğun olaraq döyüş bayrağı sıra meydanına gətirilərək Dövlət himni ifa edilib və tədbir açıq elan olunub.**

Sonra gənc əsgərlər təntənəli surətdə hərbi andı qəbul ediblər və anda son nəfəsədək sadiq qalacaqlarına əmin ediblər.

Andiçmə mərasimlərində hərbi hissələrin komandanlığı, yerli icra orqanları və ictimaiyyət nümayəndələri, veteranlar və əsgər valideynləri iştirak ediblər.

YENİ MÜSAVAT
N 179 (6207) 17 avqust 2015



# Kababı yedin, qaldı o birilər...

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Yəqin o məşhur hekayəni eşitmisiz. Turizm naziri Əbülfəz Qarayev yerli istirahət obyektlərindən birinə gedib. Ofisiant da onu tanımayıb təbii ki. Nazir ədəb-ərkanla menyunu soruşub, cavab bizim əzbərlədiyimiz kimi, o "qızıl üçlük" olub: lülə, tikə, basdırma... Ə.Qarayev israr edib: "Bunlardan başqa nə var?" Ofisiant "yapışdırıb" cavabı: "Elə bunları yedin, qaldı o birilər..."**

Kimsə bunun uydurulmuş lətifə olduğunu düşünə bilər. Düşünsün, bütün hallarda Azərbaycan turizminin qəbir daşına yazılacaq sözlərdir bunlar. Hər yay gələndə biz bu və buna bənzər dialoqları yaşayırıq. Hansısa ofisiant, özünə menecer, aşbaz, administrator... deyən kəslər bizə ölkədə turizmin olmadığını israrla anlatmağa çalışsalar da, biz optmist nəslin nümayəndəsi olaraq israr edirik. Son ümid... deyə üz tuturuq yaşıllıq, dəniz, dağ, bağ olan məkanlara və fiasko. Zarafat deyil, iqlim qurşaqları deyisən bizdə, çay deyirsən, əlası var, dağdan-meşədən, təmiz havadan isə danışmaq istəmirəm. Hamısı ən yüksək səviyyədə. Amma bundan istifadə edəcək menecerlər, turizm mütəxəssisləri yoxdur. Ölkənin turizm sektoruna milyardlar tökülsə də, faydası yoxdu. Kadr çatışmazlığı, aşırı rüşvət, səriştəsizlik... bu üçlük sayəsində heç nə alınmır.

Qiymətlər o qədər əl yandırır ki, insanlar acığa(bəli, məhz acığa) düşüb, başqa ölkələrə istirahətə gedirlər. Düşünün, hansı ağlı başında olan insan colma-cocuqla sərhədlər adlayıb, qatarlara-təyyarələrə minib-düşüb, gecə-gündüz qarışıqlığı yaşayaraq tətil planı qurmaq istəyər? Axı ağzında istirahət deyirsən. 7 günlük istirahət üçün bu çilə çəkilərmi? Azərbaycanlısansa, çəkərsən, çəkməlisən...

Statistikaya baxaq. Son iki ildə insanlarımız hətta Türkiyəyə də bilet bahalığına görə Tiflis üzərindən gedir. Tiflis üzərindən istirahət nədir, bilirsiniz? Detalları anladım. Birincisi, Tiflisdən Türkiyənin şəhərlərinə uçuşlar gecə saatlarında gerçəkləşir. İkincisi, Bakı avtovağzalından Gürcüstana - Sınıq Körpüyə, Tiflis avtovağzalına avtobuslar gecə saatlarında çıxır. Yəni, sən bütün hallarda səfərini gecə saatlarında etməlisən və arada xeyli saatın var ki, onu da hansısa formada istifadə etməlisən. Hələ mən Gürcüstan sərhədinin Azərbaycan hissəsində yaşanan məşəqqətdən, uzun növbələr, basabas, yersiz süründürməçilikdən danışmıram. Yaşayanlar bilir, təkrara gərək yox.

Üçüncüsü, gecə Tiflisdən Türkiyənin tətil bölgəsinə yola düşən adam elə gecə saatlarında, yəni 4-5də mənzil başına çatır. Otel qaydalarına əsasən, günorta saat 2-3-ə qədər turistə otaq verilmir: otaq təmizlənməli, təhvil-təslim olmalıdır... Sən gecə 4-dən günorta 2-yə qədər(yarım sutka) çemodanlarınla, yuxusuz gözlərinlə otelin lobbisində qaldınmı? Ancaq dediyimiz saatda sənin Türkiyə tətilin başlana bilər...

Bununla belə, bu mərhələləri keçmiş kimdən soruşsan, yenə, yenidən, bir daha eyni qrafiklə Türkiyədə istirahət etmək istəyər. Çünki ailəcə edilən tətildə sən Tiflis üzərindən getdiyin halda minimum 1200-1500 manat qənaət etmiş olursan. Düşünün, 5-10 yox, 1500 manat... Üstəgəl, 4/4-lük bir sistem, turistin əl üstündə tutulduğu, onu əsəbləşdirəcək heç bir detalın olmadığı bir məkandan danışıram. Detallara varmayacam, gedənlər rahatlıqla müqayisə apara bilər.

Azərbaycanın turizm bölgələrindəki personal narazı, aqressiv davranışları ilə özünü elə aparır ki, sanki bunu ali təhsil almağa, yaxşı yerdə çalışıb, yüksək maaş almağa sən qoymamısan. Yəni, bu, otel müdiri olacaq adamdır, amma bunun yolunu sən qapatmısan. Adama verdikləri hiss budur, mübaliğə etmirəm.

Amma imam üçün ağlayanda... Bir neçə il əvvəl yerli istirahət mərkəzində şəxsən şahid olmuşdum. Obyekt sahibi gün ərzində bir-birinin ardınca 3 nəfərə xərac verib yola saldı. Bəli, hərəsi bir yerdən gəlmişdi, paketlərini alıb getdilər. Ortada normal yoxlama yox, turistin qayğısına qalmaq yox. Məsələn, "sanepidstansiya"nın nümayəndəsi də konvertini alıb sakitcə gedir, "fövqəladə"nin işçisi də. Halbuki həqiqətən yoxlanmalıdır hamısı. Belə olsa, yayda istirahət bölgələrindən zəhərlənmə, boğulma, partlama... xəbərləri mətbuatı başına götürməz. Və gün ərzində 3 "paket"i yola salan işbaz da məcburdur ki, verdiklərini turistin canından çıxarsın. Turizm obyektlərinin sahibləri bu səbəbdən gələn turistə yolunacaq qaz kimi baxır: 3 ayda nə qopardımsa, qopardım prinsipi... Həmin turistin bir daha ora gəlib-gəlməyəcəyi işbazın qəti umurunda deyil. Çünki Azərbaycan kimi ölkədə nəinki işbazın, heç adi süpürgəçinin də sabaha ümidi yoxdur, qosqoca obyektinin bir saat içində, səbəbsiz yerə qapadılmayacağına kim təminat verə bilər ki?

Sonra da təəccüblənirsiz ki, ofisiant nazirlə niyə belə danışır? Hansı ölkədən yaşadığınızdan xəbəriniz varmı?

# Kinoteatrlara maraq niyə azalıb?

## Müşahidələr göstərir ki, səbəb təkcə texnoloji inkişafla bağlı deyil

**Son illər paytaxt Bakıda yeni kinoteatr zallarının açılıb fəaliyyət göstərməsi sevindirici haldır. Əhalinin bu sahəyə marağını artırmaq üçün bir neçə iri alış-veriş mərkəzlərində yeni kino salonları yaradılır, köhnə kinoteatrlar təmir edilib müasir formada tamaşaçıların ixtiyarına verilir.**

**Lakin müşahidələr onu göstərir ki, əksər insanlar, xüsusilə də gənclər daha çox evdə kompüter arxasında əyləşib internet vasitəsi ilə kino izləməyə üstünlük verir.**



Səbəblər müxtəlif olsa da insanların əksəriyyəti bunu əlavə xərc çəkməmək və yaxud da vaxtını əbəs yerə itirməmək üçün etdiklərini bildirirlər. Bu baxımdan bir maraqlı məqam yada düşür ki, dünyada teatrlar yarananda kimlərsə bunu kitabın ölümü, kino kəşf olunanda bunu teatrların sonu, XX əsrin sonlarına yaxın yeni texniki imkanlar ortaya çıxanda isə bir sıra mütəxəssislər bunu kinoteatrların sonunun yaxınlaşması kimi qiymətləndirirdilər.

Bəs görəsən yeni texniki imkanların yaranması, o cümlədən internet üzərindən kino izləmək insanların kinoteatrlara olan marağına nə dərəcədə təsir göstərə bilib?

Bununla əlaqədar olaraq paytaxtın bir neçə kino zallarına üz tutduq. Şəhərin mərkəzindəki "Park Bulvar" ticarət mərkəzində yerləşən "Park Cinema"dakı müşahidələrimizdən aydın oldu ki, burda daha çox xarici filmlər nümayiş olunur. Əvvəllər türk filmləri tez-tez göstərilsə də, hazırda təqdim edilən filmlər arasında rus və amerika kinematoqrafçılarını istehsal etdiyi dedektiv filmlər çoxluq təşkil edir.

Kinoteatrın Aynurə adlı əməkdaşı bizimlə söhbətdə bildirdi ki, tamaşaçılar son vaxtlar daha çox detektiv filmlərə üstünlük verir: "Ailəvi və toplum şəkildə gələn tamaşaçılar detektiv kinolara baxmağı daha çox sevirlər. Hazırda yeni bir türk filmimiz var ki, gənclər o kinoya da maraq göstərir".




Qeyd edək ki, adı çəkilən məkanda uşaqlar üçün də müxtəlif 2 və 3 D formasında filmlər təqdim edilir, lakin nədənsə yerli filmə rast gəlmədik. Seanslar üzrə biletlərin qiymətləri isə standart və münasibdir: səhər saatlarından 12:00-dək olan filmlər 4 manat, 12-00-dan 18-00-dək olanlar 6 manat, gec saatlarda başlayan filmlər üçün isə 8 manat ödəmək lazım gəlir. Günorta saatları olmasına baxmayaraq məkanda kifayət qədər insan filmlərə baxmaq üçün bilet almağa tələsirdi, xüsusilə də övladları ilə gələn valideynlər.




Bilet alan Mədinə adlı xanımla söhbətləşdik. Bildirdi ki, vaxt tapan kimi rəfiqələri ilə birlikdə kinoteatra gəlib kino izləməyi çox sevir: "Bundan böyük həzz alırıq. Xüsusilə də yeni filmləri ilk olaraq izləmək çox zövqlüdür. Evdə əyləşib kinoya baxmaq bu qədər maraqlı olmur. Ümumiyyətlə isə çox az hallarda internet üzərindən film izləyirəm".




Film izləyib kinosalonu tərk edən tamaşaçıların biri, Elnur adlı gəncə yaxınlaşıb təəssüratlarını öyrənməyə çalışdıq. O, xarici filmlərin Azərbaycan dilində verilməməsindən şikayətləndi: "Hazırda gənclərin əksəriyyəti rus dilində yaxşı anlamır. Xarici filmlərin də demək olar ki, hamısı rus dilindədir. Bu problem aradan qaldırılsa inanıram ki, daha çox izləyici kino salonlara axışar".

Elnurdan bilet qiymətlərindən razı qalıb-qalmamasını da soruşduq: "Qiymətlər deyərdim ki, münasibdir. Lakin yerli filmlər də bu siyahıda yer alsaydı, daha yaxşı olardı" deyə gənc öz fikrini bildirdi.

Apardığımız araşdırmadan o da məlum oldu ki, "Park Bulvar" iri ticarət mərkəzi olduğundan gün ərzində kinoteatra 100-dən çox tamaşaçı təşrif buyurur. Həftəsonu istirahət günləri isə daha çox tamaşaçı film izləməyə gəlir.

Daha sonra isə yeni təmirdən çıxan Nizami Kino Mərkəzində olduq. Burda da filməri izlmək üçün gələn tamaşaçılar kifayət qədər idi. Lakin eyni vəziyyət hökm sürürdü, nədənsə burda da xarici filmlər nümayiş olunsa da, onlarla yanaşı yerli filmlər təqdim edilmirdi. Mərkəzin əməkdaşı ilə bu barədə söhbət etdik. Xanım əməkdaş bildirdi ki, bu yaxınlarda yeni istehsal edilən "Arzuların ardınca" Azərbaycan filminin təqdimatı bir neçə gün bundan əvvəl bitib: "Hazırda bir neçə türk və xarici filmlərimiz var, insanlar daha çox qeyd etdiyimiz filmlərə maraq göstərir".

Müşahidələrimizdən o da məlum oldu ki, burdakı qiymətlər digər kinoteatrlarda olduğu kimidir, lakin, bir daha qeyd edək ki, nədənsə yerli filmlərin nümayişi ilə qarşılaşmadıq. Halbuki son vaxtlar Azərbaycanın bir-birinin ardınca müxtəlif filmləri, xüsusən də komediya janrında olan kinoları ərsəyə gəlib. Onlar arasında "My name iz İntiqam", "Ay Brilliant" kimi filmləri göstərə bilərik. Yeni filmlərin ortaya çıxması onlar arasında olan rəqabəti də artırır, nəticədə daha yaxşı filmlərin istehsalı baş tutur.

Tanınmış rejissor Ayaz Salayev "Yeni Müsavat"a açıqlamasında insanların kinoteatrlara olan marağını qənaətbəxş hesab etdiyini bildirdi: "Bir vaxt bütün dünyada bir proses baş verdi, insanlar kinozallardan uzaqlaşdı. Lakin müəyyən vaxt keçdikdən sonra insanlar yenidən kinozallara axışmağa başladı. Ümumiyyətlə isə kinozallarda kino izləmək hamı ilə birlikdə kino izləyib emosiyaları paylaşmaq deməkdir. Mən özüm də həftəsonları ailəmlə kinoteatrlara gedib film izləməyi çox sevirəm və bunu əyləncə kimi qəbul edirəm. Bir sözlə, kinoteatrlara gedib kino izləmək ənənəsi mənim də həyatıma geri qayıdıb".

Psixoloq Elnur Rüstəmov kinoteatrlarda insanlarla birlikdə kino izləməyin müsbət tərəflərini qeyd etdi: "Hər şeydən öncə onu deyim ki, evdə kinonu izləməklə kinoteatrda kino izləmək arasında fərq ondan ibarətdir ki, insanda özünü idarəetmə mövcud olur. Belə ki, evdə diqqət yayına bilir, lakin bu, kinoteatrlarda baş verə bilmir. İnsanlar birlikdə kino aləminə daxil olub eyni emosiyaları paylaşa bilir. Bu da insanlar üçün çox önəmlidir. Yəni sən insanlarla birgə eyni vaxtda gülə və ya duyğulana bilirsən. Bunun da sosial adaptasiya istiqamətində çox böyük təsiri var".

Psixoloq ölkədə əhalinin kinoteatrlara olan marağının az olduğunu deyib: "Ümumən götürəndə əhalinin bu sahəyə olan marağını qənaətbəxş hesab etmək olmaz. Çox istədik ki, tələbələr, uşaqlar üçün endirimlər, güzəştlər olsun. Belə olan halda insanlarda motivasiya yaranacaq və hansısa asudə vaxtda gedib film izləməyə böyük həvəs göstərəcəklər. Bu təqdir olunmalıdır, çünki insanların canlı ünsiyyətə çox böyük ehtiyacı var".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 179 (6207) 17 avqust 2015

**Bu da tətilin sonu. İl boyu onu necə quracağınızla bağlı planlar qurmuşduz. Ölkə daxilində, ya xaricində? 10 günlük, ya 15? Uşaqlarla, ya onlarsız? Hamısı geridə qaldı... “Yay gəlsəydi, 2-3 həftə istirahətə çıxardım” deyib, internetdə tətil məkanları ilə bağlı axtarışlara çıxmışdız axı. Getdiniz, kompüterdən, internetdən, gərgin iş həyatından... uzaq günləri doyunca keçirdiz. Və...**



# Tətil bitdi, yaşamağa davam...

## Yay istirahətindən sonra həyatla “ayaqlaşma”nın ilginc çıxış yolları; 10 qızıl qaydası...

Və hər gözəl şey tez bitər. Bir də baxırsız ki, 11 aydır, bəh-bəhlə gözlədiyiniz tətil günlərinin sonu çatıb. Və bu cənnətdən qayıdıb, yenidən iş həyatının qoynuna atılmalısınız.

“Adamın pulu ola, işləməyə” deyimini tez-tez təkrarlamağa başlayıb, özünüzü də yüklədinizmi? O zaman işə qayıtmaq lap çətinləşir. Amma bu, təkcə bizim başımıza gəlmir. Dünya psixoloqları sözügedən durumu “tətil depressiyası”, “tətilsonrası sindrom” adlandırırlar. Və ondan çıxış yollarını da axtarıb tapıblar. Biz də əksəriyyətin məzuniyyətini nöqtələyib, iş həyatına qayıtdığı bu günlərdə sözügedən problemi gündəmə gətirmək istədik. Necə edək, bu durumdan necə qurtulaq?

Mütəxəssislər bildirir ki, tətildən qayıdanların işə adaptasiyası xeyli vaxt alır. Üstəlik, adaptasiya müddəti nə qədər uzanırsa, işçinin motivasiyası, iş əmsalı da bir o qədər azalır. Araşdırmalara görə, istirahətdən qayıdan insanların təxminən 50 faizi özünü yaxşı hiss etmədiyini deyir.

İş həyatına adaptasiya olmaq bir çox insanda sıxıntı yaradır, yuxusuzluq, baş ağrısı, həzm problemi kimi sağlamlıq problemlərinin ortaya çıxmasına səbəb olur. Xüsusən qayğı və depressiyaya meylli olan şəxslərin adaptasiya problemi güclü olur. Bu vəziyyətdə tək istisna isə “işkolik” adlandırdığımız kəsimdir. Mütəxəssislər deyir ki, onlar həftə istirahət zamanında da işdən tam aralana bilmir, elektron ünvanlarını tez-tez yoxlayır, iş yeri ilə əlaqə yaradırlar.

### Tətildən sonra istefalar niyə artır?

Türkiyənin Medikal Park Xəstəxanasının psixoloqlarından olan Zeren Okçuoğlu Kadıoğlu bildirib ki, istirahətdən qayıdandan sonra istefa edənlərin sayında bir artım var. Bunun səbəbi isə olduqca sadədir: “İşləyənlər üçün iş stressindən və məsuliyyətindən uzaq keçən tətildən sonra keçmiş, darıxdırıcı həyata qayıtmaq çətin gəlir və bunun öhdəsindən gələ bilmir. Onlara elə gəlir ki, həyat böyürləri ndən axıb gedir və onlar heç nə yaşamadan yaşlanırlar. Bu səbəbdən də istefa verməyi problemdən çıxış yolu kimi görürlər”.

Amma Türkiyənin Avcılar Medicana Xəstəxanasından psixoloq Betül Bilgen hesab edir ki, istirahətdə ruhlarına istirahət verən insanların tətildən sonra iş əmsalı və keyfiyyəti artır.

### Tətildən sonrakı ilk həftə az işləmək lazımdır

Rusiyanın sosial araşdırma şirkətlərindən biri üzə çıxarıb ki, işçilərin 31 faizi daha çox tətil üçün maaşlarından fədakarlıq edir. Buna görə də işçilər yüksək maaşın itkisini hiss etdikləri vaxt rəhbərlikdən onun problemlərinin həllini gözləyir. Bəzən bu, işçi ilə rəhbərlik arasında ciddi anlaşılmazlıq yaradır ki, bunu da vaxtında həll etməsələr, işçinin öz işini itirməsi ilə nəticələnə bilər. Xüsusən də 16-24 yaşlı gənclərin 2/5-sinə daha çox tətil verilərsə, daha az maaş almağı qəbul edəcəklərini deyir.

Araşdırma üzə çıxarıb ki, yeni işə girənlər ilk illərində belə maaş ödəmələrindən daha çox ekstra tətil istəyirlər.

İstirahət bitəndən sonra işə adaptasiya vaxt alsa da, bu vaxtı qısaltmağın yolları var. Həm işçilərin, həm də iş sahiblərinin tətbiq edəcəyi kiçik planlarla bu müddət daha da asan keçilə bilər. İşə getməzdən əvvəl hazırlıq görmək, ilk həftənin çətin keçəcəyini əvvəldən qəbul etmək problemi nisbətən xəfifləd bilər. İlk həftə işdə nisbətən az yüklə çalışmaq lazımdır. Bu, tətil zamanı alınan enerji və müsbət emosiyaların birdən tükədilməsinin qarşısını ala bilər. Əksinə, bunların miqdarını artırmaq üçün ən yaxşısı sistemli idmanla məşğul olmaqdır.

### Rəhbərlik işçilərin adaptasiyası üçün nə etməlidir?

Tətil müddətində insanlar yeni qərarlar qəbul edir, amma onları həyata keçirmək üçün özlərinə müəyyən vaxt verməlidirlər. Psixoloqlar müəyyənləşdirib ki, iş yeri sahibləri də adaptasiya üçün işçilərinə yardım etməlidir. Yardımın üsulları aşağıdadır:

İstirahətdən işə qayıtdıqları ilk bir neçə gün boyunca işə təxminən 15 dəqiqə gec gəlib, tez çıxmaq işçilərin adaptasiyasına yardım edə bilər.

İşçilərin xoşuna gələcək iş şərtlərini təmin etmək onların iş əmsalını artıracaq.

İşçinizə yeni bir fikir təqdim edin: yeni bir layihə düşünməsi üçün onu cəsarətləndirin. Yeni bir fikir üzərində işləməsi onun tətildən sonra cansıxıcı iş həyatına adaptasiyasını maksimum yüksəldəcək.

Tətildən qayıtdığı ilk günlərdə işçilərə gərgin və zaman məhdudiyyəti olan işlər yükləməmək daha uyğun olacaq.

İşçilərinizlə ünsiyyət qurun, onun işdən soyuduğunu hiss etdiyinizi və buna anlayışla yanaşdığınızı deyin. Bu halda həmin işçi sizin ona robot kimi yox, insan kimi yanaşdığınızı anlayıb, vəziyyəti düzəltməyə çalışacaq.

İşçilərinizə ildə bir dəfə, çox uzun müddətli məzuniyyət vermək yerinə, tez-tez, amma qısa müddətli məzuniyyətlər verin. Bu halda həm iş əmsalı yüksələcək, həm də daim narazı işçilərlə işləməyəcəksiz.

### Tətil depressiyasından çıxmağın 10 qızıl qaydası...

Yaxşı, bəs işçilər bu adaptasiya üçün nə etsin?

İşə başlamazdan bir neçə gün öncə öz evinizdə olun. Evlə bağlı görməli olduğunuz işləri həyata keçirin, o günlərdə həll edin. İşə getməzdən bir gecə öncə yaxşı yatıb dincəlin.

Cansıxıcı iş həyatına qayıtmağı özünüz üçün asanlaşdırın. Qayıdışınızın ilk gününə vacib iclas və görüşlər təyin etməyin.

İlk günlər axşam gəzintiyə çıxın, əyləncənizi birdən-birə, “xırp” deyə yekunlaşdırmayın. Əksinə, tətildən işə kəskin keçid adaptasiyanı dözülməz hala çatdırır.

Keçmiş tətiliniz haqda düşünəndə heç vaxt “kaş ki” ilə başlanan cümlələr qurmayın, ancaq gözəl detalları yadınıza salın.

Məişət və iş həyatınızdakı pozitiv məqamlara yüklənin. Hər gün uğur qazandığınız, xoşunuza gələn şeylər barədə düşünün.

Həyatın sürətlə axıb getdiyini nəzərə alıb, qərarlarınızı təxirə salmayın. Onları həyata keçirməniz özünüzə inamı artıracaq və bunları etdikcə iş həyatınızı da yenidən sevməyə başlayacaqsız.

Gələn il daha maraqlı istirahət qura bilmək üçün bu il işləməli olduğunuza özünüzü inandırın.

İstirahətdə olduğunuz müddətdə üst-üstə yığılan işlərinizi bir anda yekunlaşdırmağa çalışıb özünüzü yormayın. İş zamanı vaxt tapdıqca fasilə verin ki, bir anda yorulmayasınız. İşdən sonra kiçik gəzintilər germəkləşdirib, yorğunluğunuzu ata bilərsiniz.

Əgər iş yoldaşlarınız tətildə, siz işdəsinizsə, özünüzə belə təsəlli verin: onlar işləyəndə də mən tətildə idim.

Amma daha yaxşı və rahat yaşamaq istəyirsizsə, işləməyə məcbursunuz. Psixoloq Aydın Sezer isə deyib ki, istirahəti həyatdakı bütün problemlərindən qaçış yolu kimi görən insanların iş həyatına qayıdışı problemli olur. Çünki onlar tətil zamanı bu problemlərdən müvəqqəti qaçırlar. Geri qayıdanda onları “yerində görüb” depressiyaya düşürlər: “Dözümsüzlük, tez hirslənmə, yuxu və iştah sistemsizliyi, səbəbi bəlli olmayan ağrılar, səhərlər yuxudan yorğun oyanma da tətil sonrası yaşana bilən sıxıntılardandır”.

Tətildən qayıdanların işə adaptasiyası xeyli vaxt alır. Üstəlik, adaptasiya müddəti nə qədər uzanırsa, işçinin motivasiyası, iş əmsalı da bir o qədər azalır. İş həyatına adaptasiya olmaq bir çox insanda sıxıntı yaradır, yuxusuzluq, baş ağrısı, həzm problemi kimi sağlamlıq problemlərinin ortaya çıxmasına səbəb olur. Xüsusən qayğı və depressiyaya meyilli olan şəxslərin adaptasiya problemi güclü olur.

Bayramdan sonrakı tətil insanlar üçün sadəcə dincəlmək üçün deyil, istədiyini yemək, istədiyin qədər yemək üçün də gözəl bir fürsətdir. Məhz o rahatlıq və komfortdan sonra işə qayıtmaq, yorulmaq, istədiyi zaman yemək yeməmək, istədiyi kimi hərəkət edib dincələ bilməmək sıxıntı yaradır. Bayrama görə verilən tətil günləri uzun müddət işləyən insanlar üçün mükafat kimidir. İş günlərində sabah işə getmək üçün erkən vaxtda yatmaq lazımdır. Yorğunluqdan nə yediyinin fərqinə varmadığından acından ölməmək üçün əlinə nə gəldi tapıb yemək lazımdır. Məsuliyyətli olmaq lazımdır. İşə gecikməmək, işini, evini, sağlamlığını, təmizliyini, baxımını 24 saata sığışdırmaq vacibdir. Tətil olanda isə xüsusi təamlar, gecə yarısına kimi televizora baxmaq, vaxtının böyük hissəsini ailəsinə, özünə ayırmaq insan üçün əvəzedilməz bir fürsətdir. Tətildən sonra işə qayıtmaq isə heç də xoş olmur. Buna görə tətilləri heç vaxt bitməyəcəkmiş kimi yaşamaq lazım deyil. Tətil daha yaxşı işləmək üçün insana verilən bir şans olmalıdır.

İş ərəfəsində fikri tamamən işləmək, pul qazanmağa yönəldən insanlar bütün ilin yorğunluğunu bayram tətillərində ata bilməzlər. Məhz buna görə də bayram sonrası depressiv vəziyyət yaranır. Bir qisim insanlar rahatlamış, dincəlmiş formada işə başlayır, ikinci qisim insanlar isə yorğun, əsəbi, yuxulu olurlar. İlin bütün günlərində gündən zövq almağa çalışmaq hər günü bayram etmək deməkdir.

Dincəlmək, kitab oxumaq, harasa getmək üçün vaxtım yoxdur deyən insanlar belə məşğuliyyətləri bayram ərəfəsinə saxlayırlar. 7 günə isə bütün ilboyu xəyal etdiyi məşğuliyyətləri sığışdırmağa çalışırlar. Nəticədə istirahətdən tam doymamış yenidən işə qayıdırlar. Belə insanlar nə işdən, nə də istirahətdən zövq ala bilirlər. Günü həm işləmək, həm dincəlmək, həm kitab oxumaq, həm dost-tanışla vaxt keçirmək üçün bölən insanlara isə tətil əlavə hədiyyə kimi olur.

Bayram sonrası depressiyalar da insanlar arasında yayılan hallardan biridir. Yüksək kalorili qidalar həftə ərzində insanda tənbəlliyə, passivləşməyə səbəb olur. Tətil günlərində belə yüngül gəzinti ilə hərəkət etmək, yatmamaq, daim nə iləsə məşğul olmaq insanda passivliyin yaranmasının qarşısını alar. Əgər siz artıq passivləşmisinizsə, özünüzü işləməyə məcbur etməyin. İşin ilk günlərində bayramdan əvvəl etdiklərinizə nəzər salın. Sanki başqa insanın işinə nəzər yetirirmişsiniz kimi, uğur və məğlubiyyətlərinizi gözdən keçirin. Bu, həm yavaş-yavaş sizin iş həyatına adaptasiya olmağınıza, həm də bayramdan sonrakı iş həyatınızda yenidən yanlışlara yol verməməyinizə səbəb olar.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 179 (6207) 17 avqust 2015

# Cavid Hüseynovun yoxluğu "Qəbələ"nin oyununa təsir edəcəkmi?

## Klubun psixoloji təzyiqlər altında olacağı qaçılmazdır; idman mütəxəssisi isə fərqli düşüncədədir; **Natiq Muxtarlı:** "Klub bir oyunçu üzərində qurula bilməz..."

**"Qəbələ" futbol klubu avqustun 20-də Yunanıstanın "Panatinaikos" klubu ilə Avropa Liqasının pley-off mərhələsində ilk oyuna çıxacaq. Klubun son günlərdə sabiq kapitanı Cavid Hüseynovla bağlı yaşadığı məlum hadisələrin oyuna ciddi təsir edəcəyi qaçılmazdır.**



Belə ki, oyunlarını kapitan olaraq, C.Hüseynovun üzərində quran klubun psixoloji təzyiqlər yaşaması oyuna təsirsiz ötüşməyəcək. Doğrudur, əvvəlki oyunlarda sarı vərəqə aldığına görə, sabiq kapitan komandada qalsa belə, "Panatinaikos"la ilk oyunu buraxmalı olacaqdı. Amma bu da heç nəyi dəyişmir. Çünki klub olaraq, "Qəbələ" üzərində psixoloji təsir edəcək. Bu da bəzən belə önəmli oyunlarda nəticəyə ciddi təsir edir.

Komanda.az saytının redaktoru Natiq Muxtarlı bu düşüncədə deyil. O hesab edir ki, klub bir oyunçu üzərində qurula bilməz: "Hər bir futbolçunun klubda müəyyən mövqeyi var. Təbii ki, əsas heyətdə oturuşmuş oyunçunun yoxluğu bu və ya digər dərəcədə komandanın oyununa təsir edir. Amma nəzərə alaq ki, müasir futbolda peşəkar klublar bir oyunçudan asılı olmamalıdır. Müasir Avropada bu belə qəbul olunub. Hətta orta komandalarda belə, hər bir futbolçunu əvəzləyəcək oyunçu olmalıdır. Hətta bu gün "Barselona"da belə, Messini əvəzləyəcək futbolçu var. Yəni "Messisiz "Barselona" yoxdur" anlayışı qəbul olunmur. Ona görə də, düşünmürəm ki, Cavid Hüseynovun yoxluğu "Qəbələ"nin oyununa ciddi təsir edəcək. Ortada məşqçi tapşırığı, sistem var. Hər kəs buna uyğun bacarığını nümayiş etdirir. Hesab edirəm ki, baş məşqçi Roman Qriqorçuk da bu boşluğu dolduracaq taktiki gedişlər edəcək. Əgər Cavidin yerini dolduracaq futbolçu "Qəbələ"də yoxdusa, bu artıq klubun problemidir. İşlərin düzgün qurulmamasından irəli gəlir. Klubun isə, peşəkar olmadığına işarədir. Roman Qriqorçuk istedadlı mütəxəssisdir. Onu da qeyd edək ki, Cavid qalsa belə, ilk oyunda cəzalı durumda idi. Çünki əvvəlki oyunlarda sarı vərəqə almışdı. Onun yerini dolduracaq oyunçu mütləq olmalıdır. Həbs olunmasa belə, zədələnə bilərdi. Sözsüz ki, təsiri olacaq. Amma nəzərə çarpacaq dərəcədə olmamalıdır. Şəxsi fikrimə görə, "Qəbələ"nin oyununda Cavidin yoxluğu hiss olunmayacaq. "Qəbələ"nin şansı yenə də var. Klub bu səddi aşmağa qadirdir. Rəqibin də futbolçularının iki ayağı var, bizimkilərin də. Ona görə də, baş məşqçisinin bu yoxluğu hiss etdirməyəcəyini düşünürəm".

N.Muxtarlı "Qəbələ"nin oyunçularının psixoloji cəhətdən hazır ola bilməmək ehtimallarından da danışdı: "Bu amil düşündürücüdür. İstər-istəməz klub psixoloji təsir altındadır. Baş verənlərin təsir etdiyi danılmazdır. Klub rəhbərliyi və məşqçilər bu istiqamətdə futbolçularla mütəmadi iş aparmalıdır. Çünki Cavidin olmaması yox, psixoloji amil oyuna ciddi təsir edə bilər. Cavidin həbsinin oyunçulara ciddi təsir edəcəyi gözlənilәndir. Çünki onun klubda dostları var. Bu cəhətdən futbolçular onun yoxluğunu hiss edə bilərlər. Bu məqam özünü daha qabarıq şəkildə göstərə bilər".

❑ **Cavanşir ABBASLI**


**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**








**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34




## 1 həftə əvvəl itkin düşən 4 balıqçı İranda tapıldı

**Avqustun 10-da Xəzərdə itkin düşmüş 4 neftçalalı balıqçı tapılıb. Bu barədə virtualaz.org saytının Şirvan bürosuna itkin balıqçılardan birinin qohumu, Neftçala rayon sakini Tanrıverdi Əliyev məlumat verib.**

T.Əliyev bildirib ki, Neftçala rayonunun Qoltuq kənd sakinləri olan 4 balıqçı sağ-salamatdır: "Həmin 4 nəfərin ailələrinə verilən məlumata görə, onlar İran İslam Respublikasının Sərhəd Xidmətinin əməkdaşları tərəfindən saxlanılıblarmış və hazırda İrandadırlar".

Xatırladaq ki, Neftçala rayon sakini Tarıverdi Əliyev virtualaz.org saytına bir gün əvvəl demişdi ki, aralarında xalası oğlunun da olduğu 4 neftçalalı balıqçı avqustun 10-dan itkin düşüblər. Həmin şəxslər bunlar idi:

Ağalarzadə Şahin Mazan oğlu, 1970-ci il təvəllüdlü
Abbasov Sahib Qarakişi oğlu, 1964-cü il təvəllüdlü
Eynullayev Əliş Ulduz oğlu, 1985-ci il təvəllüdlü
Xəlilov Nəcəf Rafil oğlu, 1966-cı il təvəllüdlü.

T.Əliyevin verdiyi məlumata görə, adıçəkilən şəxslər 6 gün əvvəl qanuni sənədləri olan balıqçı qayığında Bakı şəhəri Pirallahı adasından balıq ovlamaq üçün Xəzərə çıxıblar. Elə o vaxtdan da onlardan bir xəbər yoxdur. Avqustun 13-də Şahinin, avqustun 14-də isə Nəcəfin həyat yoldaşlarının mobil telefonlarına gizli nömrələrdən zənglər gəlsə də, xətdəki xışıltıdan danışmaq mümkün olmayıb, əlaqə kəsilib. İtkin düşmüş balıqçıların yaxınları avqustun 12-də FHN-ə müraciət ediblər. Nazirlikdən isə onlara bildirilmişdi ki, Xəzərdə itkin düşmüş balıqçıların tapılması üçün havadan və dənizdən axtarışlar başlanılıb.



## Sürücü uşağı vurmamaq üçün maşını dirəyə çırpıb

**Lənkəranın Sütəmurdov kəndi ərazisində yol qəzası baş verib. "Report" xəbər verir ki, Velədi kənd sakini 34 yaşlı Amid Əyyar oğlu Əliyev idarə etdiyi "Mercedes" markalı minik maşını ilə manedən qaçmaq istəyərkən yol kənarındakı elektrik dirəyinə çırpılıb.**

Sürət yüksək olduğundan təhlükəsizlik yastığının açılmasına baxmayaraq, sürücü baş nahiyəsindən xəsarət alıb. Zərbənin gücündən beton elekrtik dirəyi parçalanıb, avtomaşına ciddi ziyan dəyib.

Hadisə şahidlərinin sözlərinə görə, sürücü avtomobili uşağı vurmamaq üçün yoldan kənara çəkib və qəza törədib. Yaralı kəllə-beyin travması diaqnozu ilə Lənkəran Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Faktla bağlı araşdırma aparılır.

# Unudulan din xadimlərimiz

## Fatmayılı Şeyx Ağahüseyn haqda nə bilirik...

**Xalqımızın tarixində elə din xadimləri, üləmalar olub ki, bu gün onları unutmaq, yaddaşımızdan silmək istər tariximiz, istərsə də gələcək nəsillər qarşısında böyük insafsızlıq, nankorluq olardı. Unutmaq olmaz ki, zəkalı din xadimləri, üləmalar öz dövrlərinin tərəqqipərvər ziyalıları ilə bir cərgədə durublar.**

Belə din xadimlərindən biri də 1886-cı ilin baharında Fatmayı kəndində Mirzəhüseyn kişinin ailəsində dünyaya göz açmış Şeyx Ağahüseyn Hüseynov olub. Xatırlatmaq yerinə düşər ki, Bakının bu qədim kəndi xalqımıza yazıçı və dövlət xadimi Tağı Şahbazi Simurqu, şair Mirzəağa Dilxunu, xalq artisti Məmmədəli Vəlixanlını, professor, təbib Əbülfəz Qarayevi, dahi bəstəkar Qara Qarayevi və başqa sənətkarları bəxş edib.

Ağahüseyn 7 yaşında ikən Mirzəhüseyn kişi onu Görədil kəndində Molla Ağaəlinin mollaxanasına qoyub. İti hafizəyə malik olan Ağahüseyn iki il müddətində Qurani-Kərimi başa vurur. Şeyx Sədinin "Gülüstan" və "Bustan"ını əxz edir, ərəb və fars dillərini öyrənir. Dövrünün qabaqcıl, gözüaçıq, savadlı din xadimi olan molla Ağaəli Ağahüseynin atasını yanına çağırtdırır.

"Mirzəhüseyn, sənin Fərzəndin çox ağıllı, dərrakəli, zehinli uşaqdır. Mən bütün bildiklərimi ona verdim, indi mənə daha ehtiyacı yoxdur. Mən oğlumu İrana, Ərəbistana oxumağa göndərirəm. Sənə də məsləhət görürəm, Ağahüseynin gələcəyi işıqlıdır. Təhsilini davam etdirməsini lazım bilirəm" - deyir.

Belə bir təklifi gözləməyən Mirzəhüseyn kişi çıxılmaz bir vəziyyətdə qalaraq söyləyir: "Molla ağa, Ağahüseyn mənim gözümün işığıdır, mən onu çox sevirəm, ancaq mən kasıb adamam, onu oxutdurmağa vəsaitim yoxdur".

"Mən bilirəm sən kasıb adamsan, ancaq eşitdiyimə görə, Ağahüseyndən başqa dörd oğlun var. Onları başa sal, bu işdə qardaşlarına kömək etsinlər. Bundan başqa kəndimizdə varlı-dövlətli şəxslər var, onlara müraciət elə, bəlkə sənə kömək etdilər. Belə uşağı kənd özü oxutdurmalıdır", - deyə Molla Ağaəli tövsiyə edir.

Uzun məşvərətdən sonra Ağahüseynin böyük qardaşları və Fatmayı kəndinin bir neçə kübar şəxsləri bu mühüm işə razılıq verirlər. 1895-ci ildə 9 yaşlı Ağahüseyn üç nəfər yoldaşı ilə Yaxın Şərqə təhsil almağa gedir. Yeddi il İranın müxtəlif şəhərlərində ali dini təhsil alan və axundluq dərəcəsinə yiyələnən Ağahüseyn bununla kifayətlənməyib İraqın Nəcə-fül-Əşrəf şəhərinə gəlir və orada təhsilini davam etdirir. Təhsilini başa vurduqdan sonra ona şeyx rütbəsi verilir.

Hələ Nəcəfdə təhsil alan zaman ona xəbər çatır ki, böyük qardaşı Kərbəlayi Əlihüseyn Kərbəla şəhərinə köçüb, ərəb qızı ilə evlənərək orada yaşamağa başlayıb. Kərbəla şəhərinə kələn Şeyx Ağahüseyn oranın dini-tədris mərkəzləri ilə tanış olur, ayrı-ayrı üləmalardən fərdi dərslər almağa başlayır. O, firh, nücum, məntiq və bir sıra dəqiq elmləri öyrənir. Təhsil illərində Ağahüseyn şəxsi mütaliəyə qızğın həvəs göstərir. Kərbəlada özünün şəxsi kitabxanasın yaradır. Doqquz il Kərbəlada yaşayıb təhsil aldıqdan sonra, Kərbəla üləma və müçtəhidləri qarşısında imtahan verməli olur.

Mərhum ilahiyyatçı alimimiz, maştağalı Axund Mirzə Əbdülxalıq söyləyirdi ki, Şeyx Ağahüseyn komissiya qarşısında imtahan verməyə çıxdığı zaman komissiya üzvləri bir-birinin üzlərinə baxırlar. Ülama komissiyasının sədri bu vaxt deyir: "Bu şeyx ki, hafizi-Qurandır. Onu imtahan etməyə dəyərmi? Təklif var ki, ona imtahansız müctəhid adı verilsin..."

****

Şərqin ən məşhur dini mərkəzlərində təhsilini başa vuran Şeyx Ağahüseyn 1917-ci ildə öz doğma kəndi Fatmayıya qayıdır. Lakin şeyxi əvvəlcə nə anası, nə də qardaşları tanımırlar, onu bir qərib qonaq kimi qəbul edirlər. İyirmi beş il vətən həsrəti çəkən şeyx Fatmayı kəndinin kübar bir ailəsindən olan Ruzi xanım Bibqulu qızı ilə ailə həyatı qurur. Bir müddət kənddə yaşadıqdan sonra o, Bakıya köçür, özünə ev alır və ömrünün sonuna kimi keçmiş Qoqol küçəsindək (indiki Mərdanov qardaşları küçəsi) 1 nömrəli dalanın 5 nömrəli evində yaşayır.

Şübhəsiz ki, Şeyx Ağahüseynin adı Tiflisdə oturan Zaqafqaziya Şeyxülislamına məlum idi və onun göstərişi ilə də Bakıda iranlıların "Zənganlar məscidi"nin axundu vəzifəsinə təyin olunur. Həmən məscid keçmiş Tatarnı küçəsi (sonralar Krupskaya küçəsi) ilə İkinci Paralel küçəsinin ayrıcında yerləşirdi.

Şeyxin dostları - İçərişəhərdən axund Şeyx Qəni, Buzovna kendindən Axund Mirzə Kamiyab, iranlı Molla Əli, Fatmayıdan Maşədi Həmzə, Pirşağıdan Qədir və başqaları məsçidə gəlib, onun moizələrini dinləyərdilər.

Azərbaycan tarixinə qara səhifələrlə yazılan 30-cu illərdə din xadimlərinin təqibi gün-gündən artırdı. Bunu Şeyx Ağahüseyn də yaxşı dərk edirdi. Deyirlər dünya fani olsa da, xali deyildir. İmdada yetən yaxşı adamlar həmişə tapılır. Şeyxin qonşuluğunda əslən Qala kəndindən olan bolşevik mayor Haşımov deyilən şəxs yaşayırdı. O, HKVD-də pasport şöbəsinin müdiri vəzifəsində çalışırdı. Şeyxə böyük ehtiramı varmış. Bir gün şeyxi yanına çağırtdırıb deyir: "Şeyx əmi, mən sənə kömək etmək istəyirəm. Ancaq şərtləri var. Sən həmişə dini libasda gəzirsən, əmmamə və əbanı çıxarmalısan. Yaşadığın evə bir nəfər xaçpərəst kirayənişin buraxmalısan. Səndən kim soruşsa ki, sən mollasan, deyərsən ki, mən tarix müəllimiyəm. Özün də bir müddət Bakıdan çıxıb kənddə yaşamalısan. Belə olan halda bəlkə sənə kömək edə bildim".

Maraqlı burasıdır ki, Şeyx kimi mötəbər bir adamın öz doğma kəndində evi belə yox idi. O, bir müddət öz kəndlisi Qüdrət Piriyevin evində yaşamalı olur. Maddi cəhətdən çox sıxıntılar çəkir. O dövrdə səkkiz nəfərdən ibarət ailəni saxlamaq asan deyildi. O bir müddət fəhləlik etməyə məcbur olur, bir müddət isə böyük qızı Səadət xanımla evdə xalça toxuyub satdırırmış. Qismətə bax, şeyx fəhləlik edərmiş, xalça toxuyarmış...



40-cı illərdə o vaxtkı siyasi rejim müəyyən qədər vicdan azadlığına yol verməli olurdu. Bu, sovet dövlətinə dünya miqyasında öz mövqelərini möhkəmlətmək üçün lazım idi. Məhz buna görə ölkədə kilsələrin, məscidlərin "dar çərçivədə" fəaliyyətinə icazə verilirdi. 1944-cü ildə Bakıda "Göy məscid"in ("Hacı Əjdər məscidi") açılışı olub. Şeyx Ağahüseyni də həmin açılışa dəvət ediblər. Onun çıxışı şəhər dindarlarına böyük təsir bağışlamışdı...

Bundan bir az sonra Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinə (İndiki Qafqaz Müsəlmanları İdarəsi -red.) Kərbəla şəhərindəki Ali Ruhanilik Məktəbindən məktub gəlir. Məktubda Kərbəlada təhsil alan tələbələr Şeyx Ağahüseyn cənablarından onun həmin məktəbdə yerləşən şəxsi kitabxanasından istifadə etmək üçün icazə istəyirdilər. Ancaq bu vaxt şeyx cənabları artıq dünyasını dəyişmişdi. 1944- cü ildə öz imanı ilə dünyadan köçən Şeyx Ağahüseyn doğma kəndi Fatmayıda dəfn olunub. Deyirlər, dəfn mərasimi böyük bir nümayişə çevrilibmiş.

*****

Bu ilin təziyə günlərində Fatmayı kəndində olduq. Kənddə yeni tikilmiş məscid binası bizi valeh etdi. Nə yaxşı ki, kəndin Hacı Çingiz, Hacı Davud və qeyriləri kimi oğulları var. Onlar Şeyx Ağahüseyni görməsələr də, onun xeyirxah, nəcib ənənələrini davam etdirirlər. Lakin bir şeydən olduqca kədərləndik. Çoxlarından şeyxin qəbrini soruşduq, nişan verən olmadı.

Şeyxin yaşadığı evin divarına xatirə lövhəsi vurmaq, adına küçə qoymaq, yeni dini məktəblərimizin birinə onun adını vermək, ilahiyyat sahəsində oxuyan tələbələr üçün Şeyxin adına təqaüd təyin etmək, bizcə, mümkün olan şeylərdir. Belə güman edirik ki, QMİ rəhbərliyi, İslam Partiyası, Bakı və Kəndlər Birliyi bu nəcib şəxsin xatirəsinin əbədiləşdirilməsinə kömək göstərəcəklər.

❑ **Hafiz SADIQ**



# Dünyanın ən kiçik dövlətləri

## Onların yaranma tarixi və fərqli atributları...

**Dünyada ABŞ, Çin, Rusiya kimi superdövlətlərlə yanaşı, BMT üzvü olan çox xırda ölkələr də mövcuddur. Onlar haqda məlumatları təqdim edirik.**

### VATİKAN

İtaliyanın paytaxtı Roma şəhərinin içərisində yerləşən və sərhədləri divarlarla hörülən Vatikan dünyanın ən kiçik ölkəsidir.

Sahəsi 0.44 kvadrat kilometr olan bu ölkənin əhalisi təxminin 800 nəfərdən ibarətdir. Bu insanların əksəriyyəti iş üçün orada yaşayırlar.

Rəsmi olaraq, 1929-cu ildə İtaliya ilə bağlanan Laterano müqaviləsi nəticəsində qurulan bu ölkə dini rəhbərliyə sahibdir. Ölkənin başında Roma Papası durur.

### MONAKO

Dünyanın ikinci ən kiçik ölkəsi olan Monako Fransa və Aralıq dənizi arasında yerləşir. Sahəsi 1.5 kvadrat kilometr olan bu ölkənin rəsmi olaraq, tək şəhəri Monte Karlodur. Bu ölkənin əhalisi 33 min nəfərdən ibarətdir.

Kazinoları və sahildəki otelləri ilə məşhur olan Monako zəngin insanların tez-tez üz tutduğu ölkədir.

### NAURU

Bu, Cənubi Sakit Okeanının Okeaniya bölgəsində yerləşən dünyanın ən kiçik ada ölkəsidir. Sahəsi 22 kvadrat kilometr olan ada ölkəsinin əhalisi 9 min 322 nəfərdir.

Bu ölkə 1900-cü ildən zəngin fosfat istehsalı ilə tanınır. Nauru 1968-ci ildə Avstraliyadan ayrılıb, müstəqil olub. Ölkənin rəsmi adı "Pleasant Island"dır.

### TUVALU

Okeaniyada Havay adaları ilə Avstraliya arasında yerləşən kiçicik ölkədir. Beş mərcan adası və dörd dayaz adadan ibarət olan bu ölkənin ümumi sahəsi 15 kvadrat kilometrdir.

1978-ci ildə ABŞ-dan ayrılıb, öz müstəqilliyini elan edib. Əhalisi 12 min nəfərdən ibarətdir.

### SAN-MARİNO

İtaliyanın cənubunda yerləşən bu ölkənin sahəsi cəmi 40 kvadrat kilometrdir. Dörd bir yanı İtaliya əraziləriylə əhatə olunan bu ölkənin əhalisi 32 min nəfərdir.

### LIXTENŞTEYN

Mərkəzi Avropada yerləşən, knyaz tərəfindən idarə edilən konstitusiyalı monarxiya dövlətidir. Lixtenşteyn Reyn çayının sağ sahilində yerləşir. Avstriya və İsveçrə ilə həmsərhəddir.

Dövlət dili alman dilidir. Danışıq dili isə alman dilinin dialektlərindən biri olan alman ləhcəsidir. Dini etiqadlarına görə əhalinin 92 faizi katolik, 8 faizi isə protestantdır.

Əhalisi 36 min nəfərdən ibarət olan bu ölkə 1806-cı ildə müstəqilliyini elan edib.

### MARŞALL ADALARI

Təxminin 100 kvadrat kilometr sahəyə malik olan bu ölkə kiçik ölkələr sırasında yeddincidir. 1986-cı ildə müstəqilliyini elan etmiş bu ölkə ekvatora da yaxındır. Əhalisi 68 min nəfərdən ibarətdir.

### Sent-Kits və Nevis

Karib dənizinin şərq hissəsində yerləşən bu dövlət Sent-Kids və Nevis adalarından ibarətdir. Dövlət başçısı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kraliçası II Elizabetdir.

Sen-Kits və Nevis həm ərazisinə, həm də əhalisinin sayına görə Karib dənizinin ən kiçik dövlətidir. Sahəsi 150 kvadrat kilometr olan bu dövlətin əhalisi isə 50 min nəfərdən ibarətdir. 1983-cü ildə Birləşmiş Krallıqdan ayrılıb, müstəqil Sen-Kits və Nevis Federasiyası adını alıb.

### SEYŞEL

Rəsmi adı Seyşel Adaları Respublikasıdır. Hind Okeanının qərb hissəsində yerləşir. 92 adadan ibarətdir. Sahəsi 405 kvadrat kilometrdir. Paytaxtı Viktoriya şəhəridir. İqtisadiyyatın başlıca sahəsi turistik biznesdir. Bu ada ölkəsi Afrikanın ən kiçik ölkəsidir. Əhalisi 88 min nəfərdən ibarətdir. 1976-cı ildə Birləşmiş Krallıqdan ayrılıb və müstəqil ölkə elan edilib.

❑ **Aygün SƏFƏRLİ**
**Musavat.com**

YENİ MÜSAVAT

Son səhifə

N 179 (6207) 17 avqust 2015

# 6 milyon dollarlıq təzminat

Amerikada bir qida firmasında çalışan işçi yanaraq həyatını itirib. Qəzaya məsuliyyət daşıyan firmaya 6 milyon dollar təzminat ödəmə cəzası verilib. Jose adlı 62 yaşlı işçi 10 metr dərinliyi olan sobaya təmir üçün girib. Josenin sobada olduğundan xəbəri olmayan başqa bir işçi onu çalışdırıb, 2 saat sonra yaşlı kişinin orada yandığı məlum olub. Bumble Bee adlı qida firmasında 270 dərəcə temperaturda yanaraq ölən kişinin ailəsi firmanı məhkəməyə verib. Məhkəmə firmanı 6 milyon dollar təzminat ödəməklə cəza ödəməklə günahlandırıb. Qərara görə, 6 milyon dolların 3 milyonu yeni sobanın alınması üçün xərclənəcək. 1,5 milyon dolları əyalət və məhkəməyə, yerdə qalan 1,5 milyon dollar isə ölən şəxsin ailəsinə veriləcək. Bu cəza Kaliforniyada bu günə qədər ödəniləcək olan ən yüksək təzminat kimi tarixə düşüb.





## Ayı üçün 20 min dollar rüşvət

Ötən həftə Afrikanın ən məşhur aslanı olan Cecili oxla vuraraq öldürən amerikalı diş həkiminin daha bir gizli işi ortaya çıxıb. Məlumata görə, amerikalı diş həkimi bir ayını öldürərkən çəkilmiş şəklinin ələ keçməməsi üçün 20 min dollar rüşvət verib. Valter James Palmer evində araşdırma aparan müstəntiqlərin ölmüş ayı ilə çəkilən şəklini tapmasından sonra həmin şəklin ortaya çıxmaması üçün onlara 20 min dollara rüşvət verdiyini də üzə çıxarıblar. Xatırladaq ki, Cecili öldürən diş həkimi məhkəmə qarşısına çıxdıqdan sonra ona 5 il həbs və 250 min dollar pul cəzası verilmişdi. O, pul cəzasını ödəyib, əməlini etiraf etdikdən sonra azadlığa çıxmışdı.



## Xəstə bacısına divan tutdu

Londonda yaşayan qadın xəstə bacısını tualetdə, ac-susuz saxlayaraq hər kəsi şoka salıb. Yaşlı qadın bacısına əziyyət verdiyi və onu bağlı yerdə saxladığı üçün həbs edilib. Məlumatlara görə, Miçiqan əyalətində baş verən hadisə zamanı 44 yaşlı Corunna adlı qadın özündən 2 yaş kiçik xəstə bacısının həm əqli, həm də fiziki cəhətdən çatışmazlıqları olduğu üçün tualetdə saxlayırmış. Xəstə bacısına çox az miqdarda yemək və su verən Corunna yuyunması üçün ona kiçik bir vedrə də verib. Polislər evə yoxlama məqsədi ilə gəldikləri zaman vəziyyəti başa düşüblər. Tualeti açdıqları zaman gördüyü səhnədən təsirlənən bir polis "35 illik polisəm, bu qədər pis insan istismarı görməmişdim" deyə açıqlama verib. Xəstə qadın xəstəxanaya aparıldıqdan sonra bacısı həbs edilib.

# Pişikkimilər 40 növ it nəslini kəsib

Daşlaşmış heyvan qalıqlarının tədqiq edilməsi nəticəsində məlum olub ki, pişikkimilər dəstəsinin nümayəndələri nəinki sağ qalmağa daha çox uyğunlaşıb, həmçinin təqribən 40 növ it nəslinin kəsilməsinə səbəb olub. Trend-in RIA Novosti-yə istinadən verdiyi məlumata əsasən, bu barədə isveçrəli alimlərin "PNAS" jurnalında dərc olunan məqaləsinə istinadən "The Independent" qəzeti yazır. Məqalədə deyilir ki, təkamül baxımından pişiklərin uyğunlaşma qabiliyyəti itlərdən daha yaxşı olub. 2 min daşlaşmış heyvan qalıqlarının üzərində aparılan araşdırmaların nəticəsi göstərib ki, pişikkimilər dəstəsi itlərlə müqayisədə daha yaxşı sağ qalmaq qabiliyyəti nümayiş etdirib. Məhz pişikkimilər Şimali Amerikada 40 növ it nəslinin kəsilməsinə səbəb olub. Bununla yanaşı, alimlər tərəfindən itlərə görə hər hansı pişik növünün nəslinin kəsilməsi ilə bağlı dəlil aşkar edilməyib.





## Həbsə girməmək üçün 14 dəfə hamilə qaldı

10 il əvvəl rüşvətxorluq və korrupsiya ittihamları ilə ömürlük həbs cəzası alan Zeng adlı qadın həbsə girməmək üçün qeyri-adi yola əl atıb. Zeng adlı qadın bu günə qədər 14 dəfə hamilə qalaraq həbs olmaqdan qurtulub. 2005-ci ildə məhkəmə qarşısına çıxan qadın Çindəki qaydalara əməl etməyə başlayıb. Belə ki, ölkə qanunvericiliyinə görə, hamilə qadınlar ev həbsində saxlanılır. Məhz bu səbəbdən o, 10 il ərzində 14 dəfə hamilə qalmağı bacarıb. 39 yaşlı qadının bu hamiləliklərin neçəsini başa çatdırdığı və uşaq dünyaya gətirdiyi bəlli deyil. Ötən ay hamilə qala bilməyən qadın polislər tərəfindən nəzarətə götürülüb və həbs edilib.




QOÇ - Astroloji göstəricilər potensial imkanlarınızın genişlənəcəyini göstərir. Əgər gücünüzə inanırsınızsa, boş dayanmağa lüzum yoxdur. Axşam rəqiblərinizdən təhlükə gözlənilir.

BUĞA - Böyük dəyişiklər astanasındasınız. Hətta lazımi məqamda düzgün qərar çıxarsanız, ayın sonuna qədər ovqatınız xoş olacaq. Tərəddüd etdiyiniz məsələləri isə təxirə salmalısınız.

ƏKİZLƏR - Özünüzü nə qədər təmkinli aparsanız, işləriniz də bir o qədər uğurlu gedəcək. Hansısa xırdaçılığa görə hisslərinizi kandara çıxarmayın. Axşama yaxın maraqlı hadisələr gözlənilir.

XƏRÇƏNG - Nə qədər güclü olsanız da, təkbaşına hansısa vəzifənin öhdəsindən gələcəyinizi düşünməyin. Çünki bu təqvimdə sizə dəstək verən olmasa, uğurlu olaylardan uzaq düşəcəksiniz. Bəxtinizdə pul var.

ŞİR - Bu enerjili təqvim bürcünüz üçün ən perspektivli zaman kəsiyinə çevriləcək. Sizə qarşı hiyləgər mövqedə duranlara əl-qol açmağa macal verməyin. Lazımi məqamlarda sərtlik də göstərin.

QIZ - Səhər saatlarından etibarən həmkarlarınızla, eləcə də yaxın münasibətdə olduğunuz bəzi kəslərlə mübahisələriniz mümkündür. İki gündən bəri bürcünüzdə bərqərar olan Ay sizdən mülayimlik tələb edir.

TƏRƏZİ - Olduqca səmərəli bir təqvim yaşayacaqsınız. Cərəyan edən proseslər bütünlüklə zövqünüzə uyğun olacaq. Amma daxili orqanlarınızı da qorumalısınız. Ağır fiziki işlərə ara verin.

ƏQRƏB - Adi bir gün yaşayacaqsınız. Hansısa böyük bir iş görəcəyiniz və ya qanqaraçılığı ilə rastlaşacağınız ağlabatan deyil. Bu gün riskdən və yeni sövdələşmələrdən uzaq olmalısınız.

OXATAN - Bu gün ümumi gərginlik sizi müşayiət etsə də, çılğınlıq göstərməsəniz, günü sakit tərzdə başa vuracaqsınız. Saat 15-18 arası səbəbsiz münaqişələrdən uzaq olun.

OĞLAQ - Göy qübbəsi gün ərzində sizi bir neçə dəfə sınaqdan keçirməyə çalışacaq. Buna hazır olun və hər hansı məişət problemini özünüzə dərd etməyin. Şəxsi işlərinizdə dönüş yaranmaqdadır.

SUTÖKƏN - Ulduzların düzümü maddi çətinliklərinizdən xəbər verir. Çalışın ki, büdcənizdə olan vəsaiti boş məsrəflərə xərcləməyəsiniz. Ailə üzvlərinizin problemlərinə laqeyd yanaşmayın.

BALIQLAR - Yeni əlaqələr qurmaq istəyirsinizsə, bu tarixdən maksimum yararlanmağa çalışın. Nüfuzlu adamların köməyindən istifadə edin. Gəlişixoş sözlər işlətməyin. Onsuz da buna heç kim inanmayacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Uşaq bədbəxtlik gətirirmiş

Amerikanın "Demography" jurnalında yayımlanan araşdırmaya görə, yeni bir uşaq insan həyatına boşanma, işsizlik və ölümdən çox bədbəxtlik gətirirmiş. Almaniyada 2 min 16 ailənin uşaq sahibi olmazdan əvvəl və olduqdan sonrakı həyat tərzi nəzarətə götürülüb. Araşdırma zamanı cütlüklərin neçə uşaq istədikləri və neçə uşağa sahib olduqları araşdırılıb. Ailələrdən uşaqları olduqdan sonra həyatlarında nəyin dəyişdiyi öyrənilib. Nəticədə məlum olub ki, 2 min 16 ailədən yalnız 30%-i xoşbəxt olduqlarını deyirlər. Məlumat üçün bildirək ki, Almaniyada bir çox cütlük 2 uşaq istədiyini deyir. Lakin son 40 ildə uşaqlı ailələrin sayı xeyli azalıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.300